

11

## Azərbaycan və Pakistan arasındakı diplomatik münasibətlər yeni mərhələdə

# Maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan birliyi!



3

Səs

№ 091 (6532) 25 may 2022-ci il. Qiymәti 60 qәpik

# Sülhə kim mane olur?

*Ermənilər, daşnaklar və Ermənistan...*



7

1988-ci ildən bu yana 34 il keçir. Bu tarixi lap 150 ilə qədər də uzatmaq olar. Bəlkə də ermənilərin Qafqaza ayaq açdığı tarixi yazsaq daha doğru olar. Münaqişə, qarqaşa, toqquşma, basqın, ölüm-itim, qaçqınlıq, müharibə... Bəli, bu sözlərlə erməni kəlməsi assosiasiya təşkil edir, desək yanılmarıq. Ayaq açdıqları gündən Qafqaz xalqları arasında məxlətənin, intriqaların salınmasında da ermənilərin "məharəti" öz sözünü deyib. Bəs ermənilərin bu xalqlarla, xüsusən də türk xalqları ilə alıb-verəmədikləri...



## "Azərbaycanda müxtəlif siyasi partiyaların fəaliyyəti üçün münbit şərait yaradılıb"

2



15

## "Bizim üçün vacibdir ki, qonşularımızın heç biri Rusiya üçün təhlükə yaratmasın"

# Ürəyimiz yananda...



16

# Dünən kənddən şəhərə, bu gün şəhərdən kəndə



8

## Zəngəzur dəhlizi açılır - Qazaxın 7 kəndi və Kərki qaytarılır



## 28 Mayda əfv gözləntisi - siyahıda kimlər var?



# "Azərbaycanın Türk Dövlətləri Təşkilatındakı rolu yüksəkdir"

*Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Baş katibini qəbul edib*

**Prezident İlham Əliyev dünən Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevi qəbul edib. Görüşdə Türk Dövlətləri Təşkilatı çərçivəsində müxtəlif istiqamətlərdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub, Azərbaycanın bu Təşkilatın fəaliyyətində rolu yüksək qiymətləndirilib.**



Torpaqlarımızın Ermənistan tərəfindən işğalı zamanı və Vətən müharibəsi dövründə Təşkilatın Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyin əhəmiyyəti bir daha vurğulanıb.

Bağdad Amreyev işğaldan azad edilmiş ərazilərə, o cümlədən Şuşaya səfərlərini məmnunluqla xatırlayıb. O, həmçinin iyunda Şuşada Türk Dövlətləri Təşkilatı çərçivəsində genişmiqyaslı biznes forumun keçirilməsi niyyətinin olduğunu diqqətə çatdırıb, Türk dünyasından olan özəl şirkətlərin və iş adamlarının Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən quruculuq layihələrinə böyük maraq göstərdiklərini bildirib. Bağdad Amreyev Şuşanın 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunduğunu qeyd edib, bu baxımdan Azərbaycan ilə birlikdə Şuşada çoxsaylı mədəniyyət tədbirlərinin keçiriləcəyini deyib.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı tərəfindən Şamaxı şəhərinin 2023-cü il üçün Türk Dünyasının Turizm Paytaxtı seçilməsinin əhəmiyyəti qeyd edilib və Bağdad Amreyevin Şamaxıya səfərinin türk dövlətləri arasında turizm sahəsində də əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edilib. Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 521-VIQD nömrəli Qanununun tətbiqi və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə maliyyə dəstəyi göstərilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev F.T.Əhmədovun Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla Fərid Turab oğlu Əhmədov Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilib. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Prezident İlham Əliyev C.Q.Qurbanovun Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilməsi haqqında Sərəncam verib. Trend xəbər verir ki, Sərəncamla Cavid Qəmbər oğlu Qurbanov Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilib. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.



## Azərbaycan ilə Özbəkistan arasında dostluq münasibətləri uğurla inkişaf edir

*Prezident İlham Əliyev Özbəkistanın Baş nazirinin müavinini qəbul edib*

Prezident İlham Əliyev dünən Özbəkistan Respublikasının Baş nazirinin müavini, turizm və mədəni irs naziri Aziz Abduhakimovu qəbul edib. Aziz Abduhakimov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlətimizin başçısına çatdırıb. Görüşdə Azərbaycan ilə Özbəkistan arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə - siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, habelə bu baxımdan qarşılıqlı səfərlərin önəmi qeyd edilib.

Söhbət zamanı Şamaxının Türk Dövlətləri Təşkilatı tərəfindən Türk Dünyasının Turizm Paytaxtı seçilməsi və orada Təşkilata üzv ölkələrin turizm nazirlərinin VII iclasının keçirilməsinin önəminə toxunulub, həmçinin bu tədbirin Təşkilata üzv dövlətlər arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Dövlətimizin başçısı Füzuli rayonunun erməni işğalından azad edilmiş ərazisində Özbəkistan Prezidentinin məktəb binasının tikintisi ilə bağlı təşəbbüsünü yüksək qiymətləndirdiyini bir daha qeyd edib. Prezident İlham Əliyev bildirib ki, ölkələrimizdə tarixi baxımdan xeyli sayda görməli yerlərin və dünya əhəmiyyətli tarixi abidələrin mövcudluğu nəzərə alınaraq turizm sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial var.

Qonaq turizmlə bağlı ölkələrimizin müvafiq qurumları arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğulayıb və Şamaxıdakı tədbirdə iştirakından məmnunluğu ifadə edib.

## "Azərbaycanda müxtəlif siyasi partiyaların fəaliyyəti üçün münbit şərait yaradılıb"

*İqtidar-müxalifət dialoqu çərçivəsində növbəti görüş Azad Demokratlar Partiyasının sədri ilə keçirilib*

***Ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqu çərçivəsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev mayın 24-də Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərlə görüşüb.***



Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şöbə müdiri Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə siyasi dialoq mədəniyyətinin yeni mərhələsinin uğurla davam etdirilməsi, aparılan çoxşaxəli islahatların müvəffəqiyyətlə həyata keçirilməsi, bir çox məsələlərlə bağlı qanunvericilik və institusional tədbirlərin görülməsi və bütün bu islahatlar fonunda ölkəmizdə fikir plüralizminin inkişafı üçün geniş imkanların yaradılması, siyasi baxışlarından asılı olmadan bütün əhali qrupları arasında ictimai iştirakçılığın genişmiqyaslı tətbiqi barədə və çoxpartiyalı sistemin inkişafına dövlət dəstəyindən söz açıb, Azad Demokratlar Partiyasının dövlət qeydiyyatından keçməsi və bugünkü aktiv legitim fəaliyyəti haqqında fikirlərini bildirib.

Azərbaycanda aparılan iqtidar-müxalifət dialoquna töhfə vermək məqsədilə müxtəlif siyasi partiyaların fəaliyyəti üçün münbit şərait yaradılmasından bəhs edən Ədalət Vəliyev ölkədə sabit siyasi mühitin dəstəklənməsi və siyasi partiyaların normal fəaliyyətinin təmin olunması üçün mütəmadi qaydada iş aparıldığını qeyd edib, bu istiqamətdə işlərin davamlı olacağına diqqət çəkib.

Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər siyasi dialoq mədəniyyətinin inkişafı üçün yeni yaradılmış partiyalarla əməkdaşlığın digər partiyalarla eyni səviyyədə qurulması və ümumi işə töhfə vermək naminə rəhbərlik etdiyi partiya ilə belə bir görüşün keçirilməsinə görə öz təşəkkürünü bildirib, iqtidarla aparılan siyasi dialoqun dövlətçiliyimizin inkişafına, partiyalarla hakimiyyət arasında və partiyalararası olan siyasi əməkdaşlığın dərinləşməsinə xidmət etdiyini vurğulayıb.

O, həmçinin son illərdə Azərbaycanın siyasi həyatının daha konstruktiv dinamikaya köklləndiyini, siyasi güclər arasında yersiz qarşıdurma, siyasi ittiham, inciklik, süni hüquqi maneələrlə bu və ya digər siyasi xadimlərin və qüvvələrin marginallaşdırılması, partiyalar, siyasi qüvvələrarası ifrat qütbləşmənin aradan qaldırılması istiqamətində böyük işlər görüldüyünü qeyd edib.

Sonda tərəflər dövlət siyasətinin müxtəlif istiqamətləri ilə bağlı siyasi partiyaların təklif və təşəbbüsləri, işğaldan azad olunan torpaqlarımızda aparılan quruculuq işlərinin dövlətimizin iqtisadi gücünün göstəricisi olması, xarici siyasətdə qazanılan önəmli qələbələr, Vətən müharibəsi Zəfərinin Azərbaycana bəxş etdiyi dividendlər, Azərbaycanla Ermənistan arasında və ümumilikdə regionda baş verən geosiyasi reallıqlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında ötən ilin sonu və bu il keçirilmiş üç görüşün nəticələri, Azərbaycanın dünyada artan nüfuzu və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.



# Maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan birliyi!

## Azərbaycan Prezidentinin Brüssel görüşü ilə bağlı Türkiyə Prezidentilə müzakirə aparması "Bir millət, iki dövlət" liderlərinin hər zaman bir-birinin yanında olduğunun sübutudur

Təhlil

**Mayın 22-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldə növbəti görüşü regionda sülhün və əməkdaşlığın təmin olunması istiqamətində atılan daha bir addımdır. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən bu görüş sayca üçüncüdür. Önəmli məsələ bundan ibarətdir ki, danışıqlar prosesində "Dağlıq Qarabağ" ifadəsinə rast gəlmirik, əvəzində Qarabağ ifadəsi bəyanatda yer alır.**

Digər məsələ kommunikasiyaların açılması ilə bağlıdır. Çünki bu məsələdə Ermənistan tərəfindən yubadılır. Eyni zamanda, 22 may bəyanatında qeyd olunan məsələ məhz iqtisadi - nəqliyyat əlaqələrinin bərpası ilə bağlıdır. Bu xüsusda nəqliyyat loqistika əməliyyatlarının strateji əhəmiyyəti də Avropa İttifaqının əsas diqqət mərkəzində olduğunu sübut edir. Digər məsələlərdən biri də sülh müqaviləsinin imzalanması ilə bağlıdır. Sülh müqaviləsi və sülh gündəliyi terminləri Avropa İttifaqının strateji xəttinin hissəsi halına gəlmişdir və bu yanaşma Cənubi Qafqazda sülhün və təhlükəsizliyin, sabitliyin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, tərəflər razılığa gələrək, növbəti görüşü iyul, avqust aylarında keçirəcəklər.

### PREZİDENT İLHAM ƏLİYEVİN RƏCƏB TAYYİB ƏRDOĞANA ZƏNG ETMƏSİ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ DOSTLUQ, QARDAŞLIQ VƏ STRATEJİ MÜTTƏFİQLİYƏ DAYANIR

Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğana həmin görüşün nəticələri, müzakirələrin gedişi barədə məlumat verib. Azərbaycan və Türkiyə münasibətləri dostluq, qardaşlıq və strateji müttəfiqliyə dayanır. İki dövlət arasında hərbi müttəfiqlik münasibətləri də var və Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycan-Türkiyə əlaqələri özünün ən yüksək səviyyəsinə çatıb. Prezident İlham Əliyev görüş zamanı Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, bu xüsusda Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan beş prinsipin təqdim olunması, iki ölkə arasında münasibətlərin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası ilə bağlı müzakirə olunan məsələlərə toxunub. Azərbaycan Prezidenti üçtərəfli görüşün nəticəsini müsbət qiymətləndirdiyini bildirib.Dövlətimizin başçısı, eyni zamanda, bu gün Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında Sərəncam verildiyini də qeyd edib. Prezident İlham Əliyev, həmçinin Zəngəzur dəhlizinin açılması, o cümlədən həm dəmir yolu, həm də avtomobil yolunun çəkilməsi məsələləri ilə də bağlı tərəflərin razılığa gəldiyini bildirib.

### TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN GÖRÜŞDƏ ƏLDƏ OLUNAN MÜSBƏT NƏTİCƏLƏRİ YÜKSƏK QİYMƏTLƏNDİRİB

Göründüyü kimi, Türkiyə-Azərbaycan qardaşlıq birliyi maraqlara deyil, dəyərlərə əsaslanır. Və Azərbaycan Prezidentinin Brüssel görüşü ilə bağlı Türkiyə Prezidentilə müzakirə aparması "Bir millət, iki dövlət"in liderlərinin hər zaman bir-birinin yanında olduğunun sübutudur. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan üçtərəfli görüş barədə verilən məlumata görə minnətdarlığını ifadə edib və bu görüşdə əldə olunan müsbət nəticələri yüksək qiymətləndirib. Azərbaycan və Türkiyə prezidentləri bölgədə sülhün tezliklə əldə edilməsinin önəmini vurğulayıblar. Qeyd edək ki, Azərbaycan və Türkiyə münasibətlərinin yüksək səviyyə çatmasında hər iki dövlət başçısının müstəsna rolu var. "Azərbaycan Prezidenti İlham Əliyevin Brüssel görüşü ilə bağlı qələbəsini Türkiyə Prezidentinə bildirməsi, müzakirə açması təqdirəlayiqdir. Qoy, bütün dünya şahidlik etsin ki, biz dost və müttəfiq dövlətlər olaraq qazandığımız uğurlar, qarşılaşdığımız problemlər və onların həlli istiqamətində daim məsləhətləşmələr aparırıq. Bu, həm də ötən ilin iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsinin fəlsəfəsindən irəli gəlir. 44 günlük Vətən müharibəsi də bir daha təsdiqlədi ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. İndi də Brüssel görüşünün mahiyyəti, əldə edilən uğurlar və həllini gözləyən məsələlərlə bağlı cənab Ərdoğanla məsləhətləşmə aparılması bunun sübutudur. Nəticə etibarilə, bütün bunlar Azərbaycanın mövqeyini gücləndirən addımlardır. Təbii ki, Ermənistan da bu prosesləri diqqətlə izləyir və görür ki, Brüssel görüşünün nəticələri ilə bağlı Azərbaycan və Türkiyə siyasi liderləri məsləhətləşmə aparırlar. Bu, iki dövlətin, iki xalqın və iki liderin hər zaman bir-birinin yanında olduğunu sübut edir.

Bəli, bu gün Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan - Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. İki qardaş ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir. Cənubu Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs bundan yalnız faydalanacaq. Çünki Azərbaycan və Türkiyə bu gün regionda yeni bir reallıq yaradır. Qarabağ savaşı Böyük Qələbəmizlə başa çatandan sonra Cənubi Qafqaz çox ciddi və mühüm bir başlanğıca qədəm qoyur. O başlanğıcın adı Sülhdür! Sabitlik və İnkişafdır!

### İLHAM ƏLİYEV VƏ RƏCƏB TAYYİB ƏRDOĞAN - BÜTÜN TÜRK DÜNYASINDA ƏLAQƏLƏRİN MÖHKƏMLƏNMƏSİNƏ XİDMƏT EDƏN QARDAŞLIQ BİRLİYİ

Ölkələrimiz arasındakı qardaşlıq, müttəfiqlik münasibətlərinin inkişafında sözsüz ki, hər iki dövlətin liderlərinin Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rolu misilsizdir. İstər Azərbaycan, istərsə də Türkiyə hər bir uğurda bir-birinin yanında görmək istədiyi tendensiya müşahidə olunur. Elə bu günlərdə dənizin üzərində inşa edilən nəhəng layihə - Rize-Artvin Hava Limanının iki qardaş ölkə rəhbərinin iştirakı ilə açılışı Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu və buna baxmayaraq durmadan inkişafa davam etdiyini göstərir. Odur ki, liderlərin iştirakı ilə baş tutan açılış mərasimi həm də dövlətlərin və xalqlarımızın bir-birinə bağlılığının növbəti əyani təzahürüdür. Üstəlik, siyasi və strateji münasibətləri nəzərə almasaq belə, bu cür hadisələrin xalqlarımız arasında xüsusi mənəvi dəyərə sahib olduğunu da vurğulamaq gərəklidir.Məsələn, ötən ilin oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini yadımıza salaq. Uzun illər sonra tarixi ədaləti bərpa edib Zəfər qazanan Azərbaycan üçün işğaldan azad edilmiş torpaqlarda bu cür böyük bir layihəni icra etmək və bunu reallığa çevirmək olduqca mühüm əhəmiyyətə malik idi. Məhz belə bir məqamda isə Türkiyə lideri açılış mərasimində iştirakı ilə bir daha Azərbaycana olan böyük dəstəyi və dövlətlərimizin, xaqlarımızın sarsılmaz bağlarla bir-birinə bağlandığını bütün dünyaya göstərmiş oldu.

### ŞUŞA BƏYANNAMƏSİ - MÜTTƏFİQLİK BƏYANNAMƏSİDİR

2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamə imzalandı. Qars müqaviləsi, "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə", "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol", eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"yə əsaslanan bu bəyannamə Azərbaycan-Türkiyə münasibətlərini daha da möhkəmləndirdi, iki xalqın tarix, soykökü, din, dil, mədəniyyət birliyinə söykəndiyini bir daha təsdiqləmiş oldu. İki dövlət arasındakı münasibətlər bununla keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu müqavilə həm də postmüharibə dövründə də Azərbaycan-Türkiyə münasibətlərinin region üçün təhlükəsizlik və sabitliyin təminatçısı olacağının elanına çevrildi.

Bir sözlə, Azərbaycan və Türkiyə qardaşlığı bölgəyə sabitlik gətirməklə yanaşı, bu birlik həm də regional güc kimi mühüm əhəmiyyətə malikdir. Bu gün öz liderlərinin sayəsində hər iki ölkə bütün dünyada böyük uğurlar əldə edən, prinsipial siyasət yürüdən güc kimi tanınırlar. Artıq şübhə yoxdur ki, iki xalq və dövlət arasındakı qardaşlıq daimidir və bundan sonra də bütün türk dünyası hər iki ölkənin növbəti uğurlarına şahidlik edəcək.

***RƏFİQƏ KAMALQIZI***

# Azərbaycan tarixinin şanlı səhifələrindən biri - Şərqin ilk Demokratik Respublikası

Azərbaycan dövləti öz tarixində çoxsaylı qəhrəmanlıq salnamələri yazıb. Bu tarixi hadisələr içərisində müsəlman Şərqində ilk demokratik Respublika Xalq Cümhuriyyətinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının həyatına əlamətdar tarixi hadisə kimi daxil olmuşdur. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. 71 il sovet imperiyasınının buxovlarında yaşayan Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra hər il ölkəmizdə 28 May Respublika Günü böyük təntənə ilə qeyd edildi. 15 oktyabr 2021-ci il tarixindən bu gün Müstəqillik günü adlandırılmağa başladı. Cümhuriyyət dövrünə bir daha nəzər salınır, onun tariximizdəki yeri və rolu ətraflı təhlil edilir, dövlət quruculuğu təcrübəsi hərtərəfli öyrənilir. Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamları dövlətçilik tariximizə olan böyük ehtiramın nümunəsi kimi tarixiləşdi.

Həmin il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası "İstiqlal Bəyannaməsi"ni imzaladı, Azərbaycanın müstəqilliyini dünyaya bəyan etdi, beləliklə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini yaşatdı. Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atıldı.

Tarixə nəzər salsaq görərik ki, 1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı nəticəsində Rusiya devrildi. Ölkədə çarizmin məzlum vəziyyətə saldığı xalqların milli hərəkatı başlandı. 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu respublika azərbaycanlıların tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoydu.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsirlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların və peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi.




## AZƏRBAYCANIN İLK PARLAMENTİ VƏ HÖKUMƏTİ, DÖVLƏT APARATI TƏŞKİL EDİLDİ

AXC Hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Paris Sülh Konfransının qərarına əsasən, müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr və sazişlər bağlamışdı.

Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı.

Azərbaycan Xalq Cümhuriyyəti, xüsusən, təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən biri tədris müəssisələrinin milliləşdirilməsi oldu. 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla milli təhsil ocağının əsası qoyuldu. Demokratik Respublika dövründə kitabxana və muzey işinin quruluşunda böyük yeniliklər edilmişdir. Azərbaycan hökuməti geniş oxucu kütləsinin ehtiyaclarını ödəmək üçün Bakıda ümumi kitabxana təşkil etmək məsələsini qaldırmışdır. 1920-ci ilin apreli üçün Azərbaycanda 95 min nüsxə kitab fondu olan 11 kitabxana var idi.

AXC dövründə Azərbaycanda ilk muzey "İstiqlal" Muzeyi təşkil olunmuşdur. Eyni zamanda, Bakıda Etnoqrafiya Muzeyinin yaradılması haqqında Maarif Nazirliyi qarşısında məsələ qaldırılmışdır. Xalq Cümhuriyyətinin zəngin və rəngarəng, orijinal mətbuatı olmuşdur. 1918-20-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarca qəzet və jurnal nəşr olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı. Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi. Bolşeviklər tərəfindən devrilməsinə baxmayaraq, istiqlal ideyası yenilmədi və 1991-ci ildə sovet imperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi.

## "MÜSTƏQİL AZƏRBAYCAN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN VARİSİDİR VƏ ONLARIN NİYYƏTLƏRİNİ BİZ HƏYATDA TƏMİN ETDİK, HƏYATA KEÇİRDİK"

71 il sonra, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycanın müstəqilliyi yenə təhlükə qarşısında idi. Yalnız Ümummilli Liderin xalqın təkidli istəyinə səs verərək, hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə separatçıların ölkəni parçalamaq kimi məkrli niyyətlərinə son qoyuldu. Dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Müstəqil Azərbaycanın Yeni Konstitusiyası qəbul olundu. Azad və demokratik şəraitdə prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Ölkədə demokratik dəyişikliklər aparıldı, hüquq-mühafizə və məhkəmə sistemi yenidən quruldu.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətə, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli platformada əməkdaşlığı əlaqələrinin qurulmasına nail oldu. Azərbaycan Prezidenti İlham Əliyev milli mənafelərlə bağlı problemlərin həllində həssas və fəal yanaşma nümayiş etdirdi. Azərbaycan dünyanın maraq dairəsinə əbədi daxil oldu və geosiyasi platformada ölkəmiz güc və nüfuz sahibinə çevrildi.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələri, modernləşməsi və vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər hər birimizi qürurlandırır. Bu məhz müstəqil bir dövlət olaraq Azərbaycanın müstəqil şəkildə dövlət başçısı tərəfindən həyata keçirdiyi siyasətinin nəticəsidir. "Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin qorunmasının, möhkəmlənməsinin ən vacib məsələlərdən biri olduğunu qeyd edib: "1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!"

***Nəzakət ƏLƏDDİNQIZI***

---

MÜDAFİƏ NAZİRLİYİ:

# "Hərbi hissəni özbaşına tərk edərək avtoxuliqanlıq edən əsgər barəsində cinayət işi başlanıb"

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi hərbi qulluqçu olduğu qeyd edilən şəxsin törətdiyi avtoxuliqanlıq hərəkətlərini videoya çəkərək sosial şəbəkələrdəki özünə məxsus hesablarında paylaşmasına münasibət bildirib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, N saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olan əsgər Məlikov Əziz Soltanpaşa oğlu xidmət müddəti ərzində intizamsızlıq göstərərək hərbi hissəni özbaşına tərk edib və digər qanunsuz hərəkətlərə yol verib.



Bununla bağlı Ə.Məlikov barəsində lazımi sənədlər toplanaraq, araşdırılması üçün cari ilin martında xidmət etdiyi qarnizon Hərbi Prokurorluğuna göndərilib.

Aprelin 11-də onun barəsində cinayət işi qaldırılıb və barəsində Azərbaycan Respublikasının qanunları çərçivəsində zəruri tədbirlərin görülməsi üçün Respublika Hərbi Prokurorluğuna təqdim edilib.

# Dünya mediası

## Prezident İlham Əliyevin Brüssel səfərindən yazır


İlham Aliyev, Ermenistan'la Zengezur Koridoru konusunda anlaştıklarını açıkladı

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Ermenistan'la hem demir yolları hem de kara yollarının inşası da dahil olmak üzere Zengezur Koridoru'nun açılması konusunda anlaştıklarını bildirdi.


Azerbaycan ile Ermenistan sınır komisyonları ortak toplantı yapacak

Brüksel'de görüşen Aliyev ve Paşinyan, barış anlaşmasına ilişkin görüşmeleri ilerletme ve ulaşım koridorlarının açılmasında da teyit etti.

Ömer Tuğrul Çam | 23.05.2022


HABER|GLOBAL

Aliyev, Michel ve Paşinyan'ın üçlü görüşmesi sona erdi

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Ermenistan Başbakanı Nikol Paşinyan ve Avrupa Birliği (AB) Konseyi Başkanı Charles Michel'in Belçika'nın başkenti Brüksel'deki üçlü toplantısı sona erdi. Michel toplantı sonunda açıklamalarda bulundu.





eunews

L'UE vuole provare a negoziare il trattato di pace tra Armenia e Azerbaijan per risolvere il conflitto nel Nagorno-Karabakh


Giornale Diplomatico

QUOTIDIANO ONLINE DI INFORMAZIONI E OPINIONI

AMBASCIATA: UE MEDIA LA PACE TRA AZERBAIGIAN E ARMENIA


Brüksel'de Azerbaycan, Ermenistan ve AB arasındaki toplantı başladı


AJMEDIA NEWS PORTAL

イルハム・アリエフ大統領は、シャルル・ミシェル欧州理事会議長と1対1の会談を行った。

Azərbaycan Prezidenti İlham Əliyevin mayın 22-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. Belə ki, Anadolu Agentliyi, "TRT Haber", "Haber Global" telekanalları, "Hürriyet", "Sabah" qəzetləri və sair aparıcı media qurumları səfərin mahiyyəti və Azərbaycanın bölgədə yaratmaq istədiyi sülh və sabitlik prosesindəki diplomatik səyləri barədə türkdilli ictimaiyyətə informasiyalar təqdim ediblər. İnformasiyalarda Prezident İlham Əliyevin səfəri, qarşılanma mərasimi və keçirdiyi görüşlər, eləcə də Şarl Mişelin bəyanatı əksini tapıb.

Qardaş ölkə mediası, həmçinin mayın 23-də Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı telefon danışığına da geniş yer ayırıb. Məlumatlarda diqqətə çatdırılıb ki, dövlətimizin başçısı Brüsseldə Azərbaycan Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri arasında keçirilən görüş barədə həmkarına məlumat verib.

Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan Prezidenti İlham Əliyevin Brüssel səfəri, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü barədə məlumatlar yayıb. Yapon və ingilis dilində yayılan məlumatlarda Prezident İlham Əliyevin səfəri, keçirdiyi ikitərəfli və üçtərəfli görüşlər, eləcə də Şarl Mişelin bəyanatı barədə məlumatlar oxuculara təqdim olunub.

İtaliyanın müxtəlif kütləvi informasiya vasitələri Azərbaycan Prezidenti İlham Əliyevin Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərinə geniş diqqət ayırıb. "Giornale Diplomatico", "Notizie Geopolitiche", "Kmetro0", "Agenzia Nova", "Eunews", "Conquiste del Lavoro" kimi xəbər portallarında dərc olunan yazılarda Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək, eyni zamanda, Ermənistan baş naziri Nikol Paşinyanla üçtərəfli görüş keçirdiyi qeyd edilib.

Prezident İlham Əliyevin Şarl Mişelin Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, iki ölkənin münasibətlərinin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası proseslərinə verdiyi dəstəyi yüksək qiymətləndirdiyi bildirilib.

Yazılarda Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin üçtərəfli görüşün yekunlarına dair mətbuata açıqlamasına, eləcə də görüşdə əldə olunan razılıqlara yer verilib.



# Azərbaycan dünyanın elit turizm mərkəzidir

Azərbaycan iqtisadiyyatının strateji istiqaməti sayılan turizm sektorunda aparılan islahatlar son illər öz nəticəsini verib. Ölkəmizdə turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb və Azərbaycan dünyanın turizm ölkələrindən birinə çevrilib. Ən məşhur brend şəbəkəli mehmanxanalar bu gün ölkəmizdədir və bunlar dünyanın ən sayılıb-seçilən hotelləri ilə müqayisədə diqqətçəkəndir. Ənənəni, yenilikləri, müasir dəbdəbə və qədimlik çalarlarını özündə birləşdirən otellər turistlərin böyük marağına səbəb olur. Paytaxtımızda olan ”Excelsior Hotel Baku”, ”Kempinski Hotel-Badamdar”, ”Hilton Baku”, ”JW Marriott Abşeron”, ”Four Seasons Hotel Baku” və başqaları Azərbaycanın böyük turizm potensialına malik olduğunu təsdiqləməklə yanaşı, respublikamızın dünyanın elit turizm mərkəzlərindən birinə çevrilməsində əhəmiyyətli rola malikdir. Görülən işlərlə bərabər olaraq dövlət başçısı tərəfindən yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində də böyük addımlar atılıb. Azərbaycanda magistral yollar müasir formada yenidən qurulub. Bir çox yaşayış məntəqəsini birləşdirən kəndlərin, yaşayış məntəqələrinin yol infrastrukturun yaxşılaşdırılması ilə bağlı dövlət başçısı son illər ərzində xeyli sayda sərəncamlar imzalayıb ki, bu da əhalinin rahatlığına xidmət edir. Bütün həyata keçirilən bu layihələr vətəndaşların rahat gediş-gəlişinin təmin olunması, yük və sərnişindaşımanın rahatlaşması ilə bərabər bölgələrdə turizmin inkişafına səbəb oldu. Azərbaycanda yeni aeroportların tikilməsi beynəlxalq hesabatlarda Azərbaycan hava xidmətlərinə görə öncül yerlərdən birində qərarlaşır. Xüsusi olaraq onu da qeyd edək ki, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi turizmin inkişafına təkandır.

Təsadüfi deyildi ki, 2019-cu ildə ölkəmizə 3 milyon 170 min turist səfər etmişdi və onlar da ölkəmizdə 4 milyard manatdan artıq pul xərcləmişdilər.

## 2022-Cİ İLİN İLK 4 AYINDA AZƏRBAYCANA GƏLƏNLƏRİN SAYI 330 MİN 679 NƏFƏR TƏŞKİL EDİB

Koronavirus (COVID-19) pandemiyasının yaratdığı böhran nəticəsində turizm sektorunda tənəzzül müşahidə olundu. Bu təkcə Azərbaycanda deyil, bütün dünyada müşahidə edildi. Ümumilikdə ötən il qlobal turizm tarixinin ən çətin ili hesab olunur. Pandemiya səbəbindən ölkələr arasında hava, quru və dəniz nəqliyyatı əlaqələrinin qapadılması, turist səfərlərinə tətbiq edilən qadağalar turizm sektoruna mənfi təsir göstərmiş oldu. Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə ölkəmizlə qonşu dövlətlərlə, o cümlədən dünya ölkələri ilə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması turizmə təsirsiz ötüşmədi. Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasında dövlət sərhədində məhdudlaşdırıcı rejimin, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması 2020-ci ilin aprel-dekabr aylarında ölkəmizə gələnlərin sayında kəskin azalmaya səbəb oldu. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən mehmanxanalarda keçirilmiş gecələmələrin sayı 2019-cu illə müqayisədə 5,4 dəfə azalaraq 416,7 min olub ki, bu da ümumi gecələmələrin 41,7 faizini təşkil etmiş oldu.

2021-ci ildə Azərbaycan Respublikasına dünyanın 167 ölkəsindən 791,8 min və ya 2020-ci illə müqayisədə 0,5 faiz az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Artıq canlanma müşahidə olunur. 2022-ci ilin təkcə aprel ayında xarici ölkələrdən Azərbaycana gələnlərin sayı 84 min 402 nəfər təşkil edib. Gələnlərin sayı ötən ilin eyni ayı ilə müqayisədə 84% artıb. 2022-ci ilin ilk 4 ayında Azərbaycana gələnlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 103% artaraq 330 min 679 nəfər təşkil edib. 2020-ci ilin yanvar-aprel dövründə isə Azərbaycana 162 min 991 nəfər səyahət etmişdi. Azərbaycana ən çox turist, Türkiyə, Rusiya, İran, Gürcüstan, Hindistan və Ukraynadan gəlib. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 49,8 faizi dəmir yolu və avtomobil, 48,0 faizi hava, 2,2 faizi isə dəniz nəqliyyatından istifadə edib.

## ERMƏNİ TERRORUNUN QURBANINA ÇEVRİLMİŞ TURİZM YERLƏRİMİZ

Təbii ki, ölkəmizin təbii ehtiyatları, coğrafi mövqeyi, tarixi zənginlikləri və potensial nəqliyyat imkanları ilə dünyanın diqqətini özünə daha da cəlb edir. Artıq Azərbaycanda koronavirusun yayılma dinamikasında stabillik müşahidə olunur. Bu, sevindirici bir haldır. Azərbaycanın ən gözəl məkanları olan Qubanın Xınalıq kəndi, İsmayıllının Lahıc qəsəbəsi, cənub mirvarisi Lənkəran, Qusarın ”Şahdağ” Qış-Yay Turizm Kompleksi, Şəkidəki Kiş Alban məbədi, Şəki Xan sarayı, dənizkənarı bulvarı ilə seçilən gözəl təbiətli Astara və onlarla belə bölgələrimizin turizmi ilə bağlı yüksək imic formalaşıb.

44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Artıq işğaldan azad olan Azərbaycan torpaqlarında yeni həyat canlanır. Bəşər mədəniyyətinə qarşı vəhşilik törədən ermənilər bu ərazilərimizi talan etmiş, abidələrimizi darmadağın edərək viran qoymuşdular. Bütün məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlər üçün istifadə edilib. Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın və Mir Möhsün Nəvvabın ev muzeyləri Şuşanı işğal etmiş erməni vandalları tərəfindən dağıdılmışdır. Bu məkanların hər biri turistlərin marağına səbəb ola biləcək tarixi yerlərdir. Artıq onlardan bir neçəsi təmir və bərpa olunub. Bu ərazilərə gələn şəxslərin - yerli və xarici qonaqların marağındadır.

## ”QARABAĞ BÖLGƏSİNİN ÇOX ZƏNGİN, FÜSUNKAR, TƏKRAROLUNMAZ TƏBİƏTİ VƏ TARİXİ ABİDƏLƏRİ VAR”

Ermənistanın təcavüzü nəticəsində meşələrimizə də külli miqdarda ziyanlar vurulub. Belə ki, 30 ilə yaxın bir zamanda işğalda olan Kəlbəcər, Laçın, Zəngilan kimi ərazilərdə meşələr vəhşicəsinə qırılaraq talan edilmişdir. Orada bitən çox qiymətli palıd, fısdıq, vələs, ağcaqayın, ayı fındığı, qoz, şərq çinarı kəsilərək Ermənistana daşınmışdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: ”İndi azad edilmiş ərazilərdə 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, 2020-ci ildə isə cəmi 174 min hektar. Yəni, 54 min hektar meşə fondu məhv edilib, qırılıb və bu, erməni cinayətinin növbəti nümunəsidir”. Dövlət başçısı azad edilmiş torpaqlarda, eyni zamanda, dövlət təbiət qoruqları və yasaqlıqların da olduğunu bildirib: ”Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu, onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb”.

Əlbəttə ki, ermənilərin Azərbaycanın flora və faunasına vurduğu ziyan canlı təbiətə böyük bir zərbədir və bu vəhşilikdir. Bir ağacı becərmək, ərsəyə gətirmək onilliklərin hasabına mümkün olduğu halda, bir neçə saat ərzində canlı təbiətə təcavüz edən ermənilər onu məhv edirlər. 1969-cu ildə yaradılan Qubadlı Dövlət Təbiət Yasaqlığının 1988-ci ildə sahəsi 8500 hektar olduğu halda, 2020-ci ildə bu 6923 hektar olub. 1577 hektarı erməni təcavüzkarları dağıdaraq, bunu talan ediblər. Laçın Dövlət Təbiət Yasaqlığı. Zəngilan rayonunda Arazboyu Dövlət Təbiət Yasaqlığı erməni təcavüzünə məruz qalıb.

Kəlbəcər ərazisində adı ”Qırmızı Kitab”a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələr var. Adı ”Qırmızı Kitab”a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə qırılaraq mebel istehsalı üçün Ermənistana göndərilmişdi. Erməni separatçı qüvvələri tərəfindən ekoloji tarazlığın pozulmasını əks etdirən reallıqlardan biri hələ sovetlər birliyində yaşadığımız illərdə Ermənistan tərəfindən Qarabağın Topxana meşəsində qiymətli ağacları vəhşicəsinə qırılması faktıdır.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində azad olunmuş torpaqlarda əsas fəaliyyət sahələri kimi kənd təsərrüfatı və turizm sahəsini qeyd edərək, Qarabağ bölgəsinin çox zəngin turizm potensialı olduğunu bildirib. Mövcud şərait həmin məkanların Azərbaycanın əsas turizm zonalarından birinə çevrilməsinə səbəb olacaq. Kəlbəcərin İstisuyu, Şuşanın, Ağdamın sanatoriyaları, Turşsu yaylaqları, İsa bulağı, Cıdır düzü və onlarla belə məkanlar sağlamlıq turizminin, eləcə də istirahət üçün nəzərdə tutulan istirahətləri keçirilməsi üçün olduqca əlverişlidir. Xatırladaq ki, sovet dövründə Azərbaycana səyahətə gələn turistlərin əsas hissəsi bu cənnət məkanına üz tutublar. 1970-ci illərdən başlayaraq, yaradılmış turizm istirahət müəssisələrinin xidmətlərindən hər il yüz minlərlə yerli və xarici turist istifadə edib. Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkündür. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdi. Zəngilan isə meşə ehtiyatı ilə zəngindir. Bütün Avropada ən böyük çinar meşəsi bu rayonda olub. Ermənilər həmin çinarları doğrayaraq xarici ölkələrə satıblar. Hər bir torpağımızda zəngin turizm məkanları mövcuddur. Şuşanın Cıdır düzünün də bu sırada adı var. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, ”Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək”.

## QARABAĞIN ƏN MƏŞHUR ABİDƏLƏRİ - ”ŞAHBULAQ QƏSRİ”

Ağdamın Şahbulaq kəndi yaxınlığında yerləşən XVIII əsrə aid qala Qarabağ ərazisindəki ən məşhur abidələrdən biridir. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Bayat döyüşündən sonra Pənahəli xan fikirləşir ki, xanlığa daha etibarlı qala lazımdır. Çünki Bayat qalasının strateji mövqeyi zəif, iqlimi isti olduğundan, orada uzun müddət böyük hərbi qüvvə saxlamaq mümkün deyildi. Buna görə də Ağdamın 5-6 kilometrliyində yerləşən Şahbulaq adlanan yerdə inşaat işlərinə başlanıldı və kiçik qala-şəhər halına salındı. Elmi ədəbiyyatda ”Şahbulaq qəsri” adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Şahbulaq qalasının da coğrafiya mövqeyi də əlçatmaz və ağaclarla bağlı olan bir ərazi idi. Qalanın tərəfləri sıldırımlı qayalarla hərtərəfli örtülmüşdü. Qala təhlükəsiz yer idi. Paytaxtın Şahbulaq qalasından Şuşa qalasına köçürülməsinin səbəbi, Şuşa qalasının əbədi keçilməz, əlçatmaz yer olması idi. Pənahəli xan çox təhlükəsiz bir ərazi istəyirdi. Buna görə də o paytaxtı Şahbulaqdan Şuşaya köçürmüşdü.

Bu memarlıq abidəsi I Qarabağ müharibəsinə qədər yaxşı mühafizə edilib saxlanmışdı. SSRİ dövründə Ağdam rayonuna gələn bütün əcnəbi qonaqlar bu abidəni ziyarət edirdilər. Abidə kompleksi həmişə diqqət mərkəzində olduğundan bir növ Ağdam rayonunun simvoluna çevrilmişdi. Bəli, bu gün işğaldan azad olunan ərazilərimizdə zəngin turizm imkanları var. Həm flora və fauna, həm də tarixi memarlıq abidələrimiz bu torpağın zənginliyinə dəlalət edir. Necə deyərlər, hər bir turistin ürəyi bu əraziləri görməyə tələsəcək. Həm səfalı yerləri görməyə, həm də tarixin yaddaşı olan daş yaddaşlarımızı seyr etməyə.

***Zümrüd BAYRAMOVA***

# Sülhə kim mane olur?

*Ermənilər, daşnaklar və Ermənistan...*

**1988-ci ildən bu yana 34 il keçir. Bu tarixi lap 150 ilə qədər də uzatmaq olar. Bəlkə də ermənilərin Qafqaza ayaq açdığı tarixi yazsaq daha doğru olar. Münaqişə, qarqaşa, toqquşma, basqın, ölüm-itim, qaçqınlıq, müharibə... Bəli, bu sözlərlə erməni kəlməsi assosiasiya təşkil edir, desək yanılmarıq. Ayaq açdıqları gündən Qafqaz xalqları arasında məxlətənin, intriqaların salınmasında da ermənilərin "məharəti" öz sözünü deyib. Bəs ermənilərin bu xalqlarla, xüsusən də türk xalqları ilə alıb-verəmədikləri nədir? Nə üçün ermənilər bizimlə dost yox, düşmən olmaq istəyirlər? Bəlkə həqiqətən də tarixdə elə hadisələr olub ki, ermənilər bunu unutmurlar, daim qisasçılıq barədə düşünürlər və hər addımda bunu əməlləri ilə göstərməyə çalışırlar? Amma...**

Tarixin səhifələrini vərəqləyirik, axtarırıq, bir tutarlı fakta rast gəlmirik. Bəs ermənilər türkün düşməni olmaq kimi təhlükəli yola nə üçün çıxıblar? Ötən əsrin əvvəllərinə qayıdaq. Birinci dünya müharibəsi, İttifaq olduqlarından istifadə edən Almaniya Osmanlını müharibəyə sövq edirdi. Lakin gənc ordu sayca 650 mini ötsə də döyüşə hazır vəziyyətdə deyildi. Bunu yuxarı hərbi komandanlıqda da bilən az deyildi, Alman imperatoru II Vilhelm və alman generalları da Osmanlını hələlik müharibədən uzaq tutmağa çalışırdılar. Lakin Almaniyanın bəzi cəbhələrdə, xüsusən də Rusiya və Fransa istiqamətində ağır məğlubiyyətə uğraması Berlini fərqli addım atmağa məcbur etdi. Daha doğrusu planlarını tezləşdirməyə vadar etdi. Rusiya və İngiltərə Osmanlı imperiyasını, ərazisində yaşayan xalqlardan istifadə edərək parçalamaq istəyirdilər. Rusiya da bunun üçün ermənilərdən istifadə edirdi. Müharibə başlayan kimi erməni komitələri "Böyük Ermənistan" xülyalarının həyata keçirilməsi üçün öz könüllü alaylarını təşkil edərək rus ordusunun önündə Cənubi Qafqaz cəbhəsində Türkiyəyə qarşı hərəkətə keçdilər. Rusların bölgəyə gəlməsilə bir yandan Daşnaksütyun cətələri, digər yandan da Hnçak qrupları kişiləri müharibədə olan türk kəndlərinə basqın edərək qadın, uşaq və qocalara işgəncə vermiş, qətlə yetirdilər. Rusiyadan gələn "könüllü erməni alaylarının" da qatılması nəticəsində Türkiyə ərazisində fəaliyyət göstərən silahlı ermənilərin sayı 30 minə çatmışdı.

Türklərin erməni silahlı dəstələrinə müqavimət göstərməsi nəticəsində hər iki tərəfdən xeyli insan həlak oldu. 1915-ci ilin fevralında Şərqi Anadolunun bütün erməni əhalisi qiyam etdiyindən Osmanlı hökuməti qəti tədbirlər görməyə məcbur oldu. Fevralın 25-də Baş qərargah bütün hissələrə, ermənilərin heç bir halda hərbi xidmətə cəlb edilməməsi barədə təlimat göndərdi. Beləliklə, erməniləri tərkisilah etdilər. Lakin onları köməkçi hərbi hissələrdə həqiqi hərbi xidmətdə saxladılar. 1915-ci il aprelin 24-də Daxili İşlər Nazirliyi erməni komitə mərkəzlərinin bağlanması, əmlaklarının müsadirə edilməsi, komitə başçılarının həbs edilməsi barədə əmr verdi. Bu təlimata uyğun olaraq 2345 erməni həbs edildi. Ermənilərin hər il soyqırımı günü kimi qeyd etdikləri 24 aprel günü əslində erməni komitəçilərinin həbs olunduğu gündür.

Osmanlı hökuməti Qafqaz cəbhəsində vuruşan ordunun arxasında sabitliyi təmin etmək, dinc müsəlman əhalisinin həyatını mühafizə etmək üçün cəbhəyanı bölgələrdən - Şərqi Anadoludan erməniləri cəbhədən uzaq bölgələrə, ilk növbədə Mesopotamiyaya köçürdü. Rusiya baş komandanlığının rəsmi məlumatına görə müharibənin lap əvvəllərində rus ordusunun tərkibində 300 min erməni əsgər və zabit vuruşurdu.

Antanta dövlətləri Türkiyənin bölüşdürülməsini gerçəkləşdirməyə çalışaraq boğazlar və İstanbulu ələ keçirmək üçün hərbi əməliyyatlara başladılar.

Bu, ermənilərin türklərə qarşı ilk və son xəyanəti deyildi. Erməniləri Hindistandan Azərbaycanın və Türkiyənin min illərlə mövcud olduğu bu coğrafiyaya köçürənlər bu addımın sonunu da düşünmüşdülər. Ermənilər xaçlı dünyasının bizim regiona, Türkün yurd tutduğu böşlgəyə göndərdiyi emissarlar idilər. Onlar əvvəl-axır türk-müsəlman dünyasına qarşı çıxmalı idilər və çıxdılar. Bu proses bu gün də davam edir. Qeyd edək ki, bütün bu proseslərin başında ermənilərin xüsusən türklərə qarşı yaratdığı "Daşnaksütyun" terror təşkilatı dayanır

1980-cı illərin sonunda SSRİ-də baş qaldıran iqtisadi-siyasi problemlər "Daşnaksutyun"un burada aktivləşməsinə səbəb oldu, öz imkanlarından istifadə edərək daşnaklar Avropa, Amerika, sonradan isə mərkəzi Sovet mətbuatında "Miatsum" ideyasını təbliğ etməyə başladılar. Lakin daşnaklar tək təbliğatla kifayətlənməyib, Ermənistana və Qarabağa silah sursat, adamlar göndərirdilər. Azərbaycan barədə təhrif olunmuş yalan məlumatların yayılmasında "Daşnaksutyun"un nəzarətində və yaxud təsirində olan KİV-lərdən aktiv istifadə adi hal alır. Daşnaklar gürcü-abxaz münaqişəsində də aktiv iştrak edirlər, onların iştrakı və köməyi ilə "Marşal Baqramyan adına erməni batalyonu" yaradılır, ki bu batalyon gürcü ordusuna qarşı döyüşlərdə iştrak edirdi.

1994-cü ildə Ermənistanda Levon Ter-Petrosyanın əmri ilə "Daşnaksutyun"un fəaliyyəti dayandırılır, bəzi üzvləri isə həbs olunur. 1998-ci ildə prezident postunda Ter-Petrosyanı əvəz etmiş, Robert Koçaryan "Daşnaksutyun"un fəaliyyətinə icazə verir. Bü gün isə "Daşnaksutyun" Ermənistanda aparıcı siyasi güclərdən biridir. "Daşnaksutyun"un tələbləri illərdən bəri dəyişməyib, partiya əvvəllər olduğu kimi Türkiyədən qondarma erməni soyqırımını tanımağı, ermənilərə təzminat ödəməyi və Türkiyənin şərqində 7 vilayəti Ermənistana verməyi tələb edir. Azərbaycana qarşı isə ərazi iddiaları dava edir, işğal olunmuş ərazilərdən savayı daşnaklar keçmiş Şaumyan rayonunun (Goranboy rayonunun cənub hissəsi) ərazisinə və Naxçıvan Muxtar Respublikasının ərazilərinə iddialıdırlar.

Bu gün isə hərbi-siyasi vəziyyət Azərbaycanın zeyrinə dəyişib. 44 günlük müharibədən sonra Azərbaycan torpaqlarını erməni silahlı qüvvələrindən azad etməyi bacardı. Bu gün proses sülh müqaviləsinin imzalanmasına doğru aparılır. Ermənistan və Azərbaycan liderlərinin müxtəlif məkanlarda, Soçidə, Brüsseldə, Moskvada artıq 6-cı görüşü baş tutub. Hər görüşdən sonra mövqelərdə, xüsusən rəsmi İrəvanın məsələyə yanaşmasında qismən sapmalar olsa da, hələlik danışıqlar öz məcrasındadır. Danışıqlar prosesinə kənar qüvvələrin müdaxilələri olsa da, hələlik ciddi təsirlərdən danışmaq tezdir. Çünki, təsir etmək, prosesi əngəlləmək istəyənlər də yox deyil, hətta daha çoxdur. Təxribatçılar, xüsusən "Daşnaksütyun" terror təşkilatının təmsilçiləri son vaxtlar, Azərbaycanın Ermənistanla 5 baza prinsipləri əsasında sülh müqaviləsinə aparan sənədləri təqdim edəndən sonra prosesi əngəlləmək, revanşist mövqelərinə yeni stimul vermək, ətrafına yeni-yeni qüvvələr cəlb etmək üçün ayağa qalxıblar. Artıq bir aydan artıqdır ki, davam edən etiraz aksiyaları əsasən Azərbaycanla imzalanması nəzərdə tutulan sülh müqaviləsinə qarşıdır. Bunu görməmək mümkün deyil.

Ermənistanda daşnaklar başda olmaqla revanşist qüvvələr vaxtı uzatmağa, yenidən güc toplamağa, erməni lobbisinin gücünə soykənərək, bəlli dairələrin, dövlətlərin maliyyəsi, hərbi yardımı ilə yeni müharibəyə başlamaq iddiasındadırlar. Ermənistanda keçirilən etiraz aksiyalarının təşkilatçılarına, daha doğrusu bu mitinqləri idarə edən qüvvələrə diqqət edin. Öndə daşnaklardır, keçmiş prezidentlər də onlara dəstək verirmişlər kimi görünürlər. Amma revanş həvəsi Koçaryan və Sarkisyanda daha çoxdur. Ən azından Paşinyandan əvəz çıxmağa çalışırlar. Moskvadan məxsusi olaraq Ermənistana göndərilmiş keçmiş "Qarabağ" təşkilatının rəhbərinin isə missiyası bambaşqadır. Sülhə "yox" deməklə ermənilər yeni müharibənin anonsunu verirlər. İndiki halda Ermənistanın müharibə aparacağı ehtimalı sıfıra bərabər olduğu kimi, məğlubiyyəti də qaçılmazdır.

**V.VƏLİYEV**










AKTUAL + ÖZƏL

# Dünən kənddən şəhərə, bu gün şəhərdən kəndə

***Zaman-zaman kəndlərimiz boşalıb. İnsanlar təmiz, günəşli havanı, sərin bulaqları, yaşıl yamacları, zirvəsi buludlarla öpüşən dağları, gül-çiçəkli düzləri qoyub şəhərlərə üz tutublar. Bu, bir neçə səbəbdən olub. Birincisi, təhsil almaq üçün şəhərlərə gedənlərin geri qayıtmaması səbəbindən. İkincisi, bir qrup insan işsizlik səbəbindən kəndini tərk edib, harada işini qura, ailə büdcəsini yarada bilibsə, orada yaşamağa başlayıb. Digər bir qrup insan isə kəndlərimizi tənbəllikdən tərk ediblər, şəhərdə rahat, ağır iş görmədən yaşamaq, gün keçirmək üçün. Beləliklə bir də baxmışıq ki, kəndlərimizdə boş evlərin, qapısı qıfıllı həyətlərin sayı gündən-günə çoxalır. Kim nə edə bilər ki... İnsan qərarını vermiş, kəndi tərk etmişdir. Artıq onu saxlamaq gecdir. Ya qapılar birdəfəlik bağlanır, ya da ata-ana bir evin altında tək buraxılır. Oğul-qız üz tutur şəhərə... Bəzən onları qınamaq da düzgün deyil. Çünki kəndlərdə iş yerlərimiz yetərli qədər olmayıb.***



## Yetim uşağa bənzəyir kəndlərimizdəki boş evlər...

Necə ki, heç kimə qaynayıb-qarışa bilməyən atasız-anasız uşaq bir tərəfə çəkilər, sadəcə sakit-sakit, ürkək-ürkək baxar, kəndlərimizdə qapısı bağlı evlər, həyətbacalar da həmin yetim uşaq təsirini bağışlayır adama. Yetim uşağın saçları tumar, könlü nəvaziş istədiyi kimi, kəndlərimizdəki boş evlər də insan əlinə möhtacdır. Həyətlərdəki ağaclar yetim uşaq kimi tumar, qayğı istər. Gözü sahibini axtarar. Lakin daha gecdir. O, evini də, həyətini də tərk etmiş, şəhərlərə üz tutmuşdur. Qapısının mal-heyvanını satıb-sovmuş, toyuq-cücənin əl-ayağını kəsmiş, bar üstündə olan onlarla ağacları tərk edib getmişdir. Bu ağacların kölgəsini, altındakı samovar çayını, nənələrin əllərinin izi yaşayan xalçaların üstündə qohum-qonşu ilə deyib-gülməyi tərk edib getmişdir. İndi bu ağaclar o günləri yaman xatırlayır, ətrafa baxır, lakin heç kimi görməyəndə qolu-budağı qırılır, yanına düşür.

Gəlir kölgəsində oturub deyib-gülən qohum-qonşulardan hərdən, ağaclara su vermək üçün, meyvəsindən dərib onu tərk edən sahibinə göndərmək üçün. Lakin ağaclar sahibindən aldığı nəvazişi bu insanlardan ala bilmir. Onların tumarı nədənsə əvvəlki tumara bənzəmir. Yetimləşir ağaclar, boynu çiynində, sakitcə bir kənara çəkilir, yol gözləyir. Sahibinin nə vaxtsa qayıdacağı ümidi ilə gözləri yollara dikilir...



## Kəndlərimiz gedənləri gözləyir...

Kənddən insanların ayrılma səbəbləri barədə yuxarıda məlumat verdik. Bəli, birinci təhsil üçün, dedik. Təhsil almaq üçün gənc şəhərə üz tutur və yenidən kəndə qayıtmır. Belə hallar kəndlərimizdə çox sayda baş verir. Ya oğlumuz, ya da qızımız olsun, təhsildən sonra şəhərdə qalıb işləmək, təhsilini davam etdirmək qərarına gəlir. Və bir daha kəndə geri dönmür. Kəndi ikinci tərk edənlər isə işsizlik üzündən gedənlərdir. Məlumdur ki, hələ sovet dövründən kəndlərimiz diqqətdən kənarda qalmış, təhsil, səhiyyə, mədəniyyət və digər sahələr üzrə az sayda iş yerləri olmuşdur. Bu iş yerləri də təbii ki, zamanla tutulur. Gənc bir ailə başçısı nə etməlidir? Təbii ki, işləməli, ailəsini dolandırmalıdır. Sual oluna bilər ki, kəndin kənd işləri var da, onlarla niyə məşğul olmurlar. Kənd işləri ilə məşğul olanlar az deyil. Kənd camaatı bu işlər olmasa, necə dolana bilərlər. Lakin təhsil alıb, kəndə qayıdan insanlar da var ki, kənd işləri ilə yanaşı, həm də təhsil aldığı sahə üzrə çalışmaq istəyirlər. Belə olan halda isə iş yeri tapmır, məcburən üz tutur şəhərlərə. Bəli, işsizlik səbəbindən kənddən gedən insan özünə iş tapır, işləyir, evini qurur. Beləliklə o da qayıtmır.



Üçüncü səbəb isə tənbəllik idi. İnsanlar var ki, tənbəllikdən həyatlarını nə kənddə, nə də şəhərdə qura bilir. Kəndin ağır iş-gücünə tab gətirə bilməyən gənc və ya orta yaşlı insan qaçıb canını qurtarmaq istəyir. Axı kənddə mal-heyvan saxlamalıdır, səhər o başdan yuxusuna haram qatıb ayağa qalxmalıdır. Bunun torpağı var, əkini-biçini var, ot biçini var, mal növbəsi, heyvan növbəsi var. Tənbəllik isə adamı basıb da, istəyir elə bir iş tapsın ki, bu qədər əziyyət çəkməsin. Düşünür-daşınır, deyir gedim şəhərdə fabrikdə, zavodda bir işə düzəlim, rahatlıq tapım. Əşi, bu qədər də iş olar? Beləliklə üz tutur şəhərə. Lakin tənbəllik elə burada da özünü göstərir. Adam haraya üz tutursa, ona təklif olunan işlə razılaşmır ki, razılaşmır. Ay bu iş ağırdır, ay bunun iş saatı çox geç bitir, ay burada işləmək üçün sübh çağından yola düşməlisən ki, vaxtında çata biləsən. Belə-belə, bir də baxıb görür ki, kənddən gətirdikləri də bitir, hələ bir qəpik pul qazana bilməyib. Ailə-uşağın da gözü onun əlindədir. Bu an başa düşür ki, yox, günah nə kənddə, nə də şəhərdədəir. Günah onun özündədir ki, tənbəlliyin daşını ata bilmir.

Tənbəllik tək kişilərə yox, həm də qadınlara aiddir. Kəndlərimizdə elə qadınlar var ki, ailəsini Allahın yurdumuza bəxş etdiyi nemətlərlə dolandırır. Yəni ta yazdan qar yerə düşənə kimi, çölün həm yeməli, həm dərman bitkisi kimi istifadə olunan ot-avarını yığıb, qurudur, bazara çıxarır, qazanc əldə edir. Hələ ailələr tanıyıram ki, ər-arvad, həm də övladları hamısı bu işlə məşğul olurlar. Həyətlərində də mal-qara, toyuq-cücə saxlamaqla digər tələbatlarını da bu yolla ödəyirlər. Süd, pendir, şor, kərə, qatıqla, toyuq, yumurta satıb digər ərzaq məhsulları alır, kənddə çoxlarından yaxşı dolanırlar. Necə deyərlər, birlikləri dirlikləri olur.

Kəndlərimiz isə hər zaman gedənlərin geri qayıtmasını gözləyir.

## Özünüməşğulluq proqramı həm məşğulluğu təmin edir, həm də kəndlərin boşalmasının qarşısını alır

İşsizlik həm kənd, həm də şəhərlərimizə aid ümumi problemdir. Lakin bu, kəndlərimizdə özünü daha bariz şəkildə göstərir. O mənada ki, işsizlik səbəbindən kəndlər boşalır, hər kəs iş dalınca şəhərlərə üz tutur. Bu da eyni zamanda işsizlik sıxlığı yaradır.

Artıq illərdir ki, aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Azərbaycan Respublikası Prezidentinin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamına əsasən özünüməşğulluq proqramı həyata keçirilir. Bu proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) dəstək göstərilir. Ailə təqdim etdiyi biznes plana uyğun olaraq istehsal və ya xidmət avadanlıqları ilə təmin edilir.

Bu proqram şəhərlərimizlə yanaşı, kəndlərimizdə də artıq öz faydasını verməkdədir. Bir tərəfdən dövlətdən asılılığın-ünvanlı sosial yardımların zaman-zaman azaldılmasına, digər bir tərəfdən isə insanın özünün çalışıb qazanmasına xidmət edən özünüməşğulluq proqramı işsiz aztəminatlı ailələrin həyatında böyük rol oynayır. Proqram dövlətin aktiv dəstəyi ilə özünüməşğulluğun və kiçik ailə təsərrüfatlarının yaradılmasının təmin edilməsinə, işsizlikdən kiçik biznesə çıxışın dəstəklənməsinə xidmət edir. Sərəncamdan ötən illər ərzində minlərlə ailələr özünüməşğulluq proqramına cəlb edilib. Kəndlərimizdə onlarla ailələr tanıyırıq ki, bu proqramdan bəhrələnərək artıq kiçik bizneslərini, ailə təsərrüfatlarını qura biliblər. Hətta bu proqram kəndlərimizə qayıdışın da səbəbkarı olub. Proqramın tətbiqindən sonra rayon Məşğulluq Agentliklərində işsiz kimi qeydiyyatda dayanan yüzlərlə insan kəndinə qayıdıb və bu sosial xidmətdən mənfəətlənərək iş qura, məşğulluğunu təmin edə bilibdir. Onlar artıq bazarlara məhsul çıxarır, qazanc əldə edir, ailə büdcəsini zənginləşdirirlər.

## Torpaq geriyə çağırır...

Bəli, bir zamanlar kəndlərdən şəhərlərə gələnlər, indi artıq şəhərləri tərk edib kəndlərimizə üz tuturlar. Bunun də bəzi səbəbləri var. Birincisi, artıq müstəqillik illərində quruculuqla, yenidənqurma ilə kəndlərimizdə də şəhərlərimiz kimi hərtərəfli şərait yaradılıb. Qazı, elektrik enerjisi, rahat yolları, məktəbi, tibb məntəqəsi, kitabxanası, klubu, interneti olan kəndlərimiz yaşamaq üçün ideal məkandır. Çünki şəhərlərimizdə tapa bilməyəcəyimiz təmiz hava, saf məhsullar kəndlərimizdə bol-boldur. Bu səbəbdən də insanlar kəndlərə üz tuturlar. İkinci tərəfdən, illərlə şəhərdə yaşayıb hələ də həyat şəraitini kənddə qoyub gəldiyi şərait qədər qura bilməyən insanlar böyük peşmançılıq hissi ilə yenidən kəndə qayıdırlar. Tikili evlərinə, həyət-bacalarına sahib çıxırlar. Məsələn, Bakının mərkəzdən uzaq bir yerində illərlə yaşayan adam müqayisə edəndə kəndinin, oradakı şəraitinin buradakından daha yaxşı olduğunu anlayır və geri dönür.

Üçüncü tərəfdən isə, indi bütün dünyada ərzaq böhranı, qlobal bahalaşma baş verir. Bu, bizim ölkəmizə də sirayət edir. Qiymətlər gündən-günə bahalaşır, dolanışıq çətinləşir. Kəndlərimizdə isə əkilmək üçün torpaq sahələri insanların yolunu gözləyir. İnsanlar da bu vəziyyətdən xəbərdardılar və yaxşı dolanışığın şəhərdən çox kəndlərdə olduğunu çox yaxşı dərk edirlər. Elə bu dərketmə ilə də kəndlərimizə qayıdırlar.

Torpaq onları geri qaytarır. Deyir ki, gəl sən mənə tər ver, mən sənə zər verim. Əz məni, əzizləyim səni. Həyatını nura çevirim, həyət-bacana bolluq gətirim. Həyat tərzini dəyişim. Evin, maşının, hər bir şeyin olsun. Ta ki, gəl, əlinə bel, dırmıq, kərənti al, köksümə endir onları, o köksdən sənə yeni həyat boylanacaq. Çək ciyərlərinə kəndinin təmiz havasını, çıx dağlara, düzlərə, yamaclara, bax, gör buradakı gözəllikləri harada görmüsən. Bu çiçəklərin rayihəsi qarışmış ətri harada almısan? Qayıt, qayıt kəndinə, təndir çörəyindən dürmək tut, buz bulaqlardan ovucovuc iç, samovar sal ağacların kölgəsində, əlini uzat ağaclardan meyvə dər, ye. Saf məhsullardan süfrənə düz. Sübh çağı yuxudan qalx, get işinin ardınca. Zəhmətə qatlaş ki, o səni həmişə uca tutsun. Sənə nə lazımdır, ey insan. Bundan gözəl həyat varmı?..

***Mətanət MƏMMƏDOVA***



# Sülhməramlı,
## Qarabağda hansı məramlı?

Sülhməramlı missiyanın mahiyyəti, missiyası nədir? Bəzi hallarda bu barədə düzgün məlumat verilmir, yaxud yanlış anlaşılır, ya da ümumiyyətlə təhrif olunur. Azərbaycan müstəqillik əldə etdikdən, özünün ordusu yaranandan, dünya miqyasında tanınandan sonra planetimizin müxtəlif qaynar nöqtələrində BMT mandatı ilə İraqda, Kosovada və Əfqanıstanda sülhməramlı əməliyyatlarda uğurla iştirak edib. Adına uyğun olaraq bölgədə, xidmət göstərdikləri qaynar nöqtələrdə qruplar, xalqlar arasında baş verən qarşıdurmaları önləmək, problemi aradan qaldırmaq üçün həyatlarını riskə atan Azərbaycan sülhməramlıları həm də neytrallıqlarını qoruyub saxlamağa çalışıblar. Və buna əksər hallarda əməl ediblər. Heç təsadüfi deyil ki, Azərbaycan sülhməramlıları beynəlxalq təşkilatlar tərəfindən daim təqdir olunublar.

Qeyd etmək lazımdır ki, BMT mandatlı və bu mandatdan kənarda olan qüvvələr münaqişə tərəfləri ilə razılaşdırılmış qaydada münaqişə bölgəsində sülhü təmin etmək məqsədilə fəaliyyət göstərirlər. Hazırda sülhməramlı qüvvələr Kosovo, Əfqanıstan, İraq, Haiti, Kipr, Livan, Suriya, Cənubi və Şimali Sudan, Mali, Kot-divuar və digər münaqişə bölgələrində müvafiq missiya yerinə yetirirlər. Ümumilikdə BMT mandatlı 13 sülhməramlı missiya mövcuddur, bundan başqa BMT mandatı altında fəaliyyət göstərməyən daha 7 sülhməramlı missiya da var. Vəziyyətdən asılı olaraq sülhməramlıların missiyası fərqlənir. Lakin bütün sülhməramlı missiyalar öz fəaliyyətində beynəlxalq hüquqa və BMT-nin baza prinsiplərinə əsaslanırlar, münaqişə bölgələrində sülhün və təhlükəsizliyin təmin edilməsinə dəstək verirlər.

Missiyalar bir-birindən fərqlənsə də, hər bir əməliyyata aid olan ümumi cəhətlər mövcuddur:

- Sülhməramlılar münaqişə tərəflərinin hər ikisinin razılığı əsasında müvafiq bölgəyə yerləşdirilir;
- Sülhməramlılar qərəzsiz və neytral olmalıdır;
- Sülhməramlılar yalnız mandatlarının hüdudları çərçivəsində və özünümüdafiə məqsədilə silah istifadə edə bilərlər;
- Əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə dəstək göstərilməsi missiyanın başlıca vəzifəsidir;
- Keçid dövrünün çətinliklərinin aradan qaldırılmasına və tərəflər arasında əlaqə üçün yerli qarşılıqlı işlək mexanizmlərinin yaradılmasına dəstək göstərilir;
- BMT sülhməramlıları olmayan missiyaların fəaliyyəti üçün müəyyənləşdirilən hüquqi baza və onların həyata keçirdiyi sülhməramlı əməliyyatlar beynəlxalq hüquqa əsaslanır;





1948-ci ildə yaradılan Birləşmiş Millətlər Təşkilatının, dünyanın müxtəlif qaynar nöqtələrində baş verən münaqişələrin qarşısını almaq və ya qısamüddətli həllini təmin etmək üçün tərkibində olan hərbi-silahlı birləşmələr "Sülhməramlı Qüvvələr" adlanır. Baxmayaraq ki, insanların beynində BMT və onun tabeçiliyində olan qüvvələrin sülh üçün effektiv mübarizə aparmadığı fikri olsa da, BMT sülhməramlı qüvvələri Kosovo, Əfqanıstan, İraq, Haiti, Kipr, Livan, Suriya, Cənubi və Şimali Sudan, Mali, Kot-d'ivuar və s. kimi dünyanın onlarca qaynar münaqişə nöqtəsində vəziyyəti tənzimləməklə məşğul olub və bəzi yerlərdə bu əməliyyatlar bu günə qədər də davam edir.

Azərbaycan Silahlı Qüvvələri tərkibində Azərbaycanın Sülhməramlı ordusu isə 1997-ci ildə yaradılıb. Daha sonra, Azərbaycan sülhməramlı bölməsi adı altında birləşib. 1997-ci ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ilk sülhməramlı bölüyü, 2001-ci ildə isə sülhməramlı taboru yaradılıb.1999-cu ilin sentyabr ayından başlayaraq Azərbaycan Silahlı Qüvvələri Kosovoda, Əfqanıstanda və İraqda Beynəlxalq Sülhməramlı Ordu tərkibində sülhməramlı fəaliyyətlər göstəriblər. Əfqanıstanda isə "Qətiyyətli Dəstək"əməliyyatı ötən ilə qədər davam etməkdə idi.

Azərbaycan Respublikası ordusu Kosovo əməliyyatından başlayaraq NATO şəmsiyyəsi altında əsas etibarilə qardaş ölkə olan Türkiyə ilə birgə hərəkət edib. 1999-cu il oktyabrın 20-də Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Kosovo Türk Taburu qüvvələri tərkibində Kosovoya gedəcək Azərbaycan birliyinin statusuna dair Sazişin Azərbaycan Parlamentində razılaşdırılmasından sonra Azərbaycan sülhməramlı birliyinin bir qrup hərbçisi bu istiqamətdəki vəzifələrinin icrasına başlayıb. NATO-nun baş katibi Azərbaycan sülhməramlı birliyinin roluna görə təşəkkür etmiş, "Kosovodakı 40 mindən çox sülhməramlı hərbçi içərisində Azərbaycan birliyinin xüsusi bir mövqeyinin olduğunu" vurğulayıb.

Azərbaycan hərbçiləri İraqda BMT-nin Təhlükəsizlik Şurası tərəfindən 2003-cü ildə qəbul edilmiş qərar əsasında xidmət ediblər. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sülhməramlı bölüyü 2003-cü ilin avqustun 15-dən 2008-ci ilin dekabrın 7-nə qədər 151 nəfər şəxsi heyətlə (120 nəfər əsgər, 16 nəfər gizir, 15 nəfər zabit) İraqda Beynəlxalq Koalisiya Qüvvələri tərkibində fəaliyyət göstərirdi.

Azərbaycan Respublikasının NATO ilə birgə iştirak etdiyi fəaliyyətinin bir qismi də Əfqanıstanda təhlükəsizliyin dəstəklənməsi ilə bağlı olub. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda Təhlükəsizliyin Dəstəklənməsi üzrə Beynəlxalq Qüvvələrin Türk taburunun tərkibində fəaliyyət göstərəcək Azərbaycan tağımına dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə sazişi Azərbaycan Respublikası Prezidenti Ümummilli Lider Heydər Əliyev 2002-ci il noyabrın 11-də imzalayıb. 2008-ci il yanvarın 15-dən Azərbaycanın Əfqanıstandakı sülhməramlı kontingentinin sayı artırılaraq bölük səviyyəsinə çatdırılıb. Həmin ilin sentyabr ayında Prezident İlham Əliyev Əfqanıstana əlavə sülhməramlı qüvvələrin göndərilməsi ilə bağlı qanun layihəsini Milli Məclisə göndərib. 2008-ci il oktyabrın 2-dən Azərbaycan Respublikasının Milli Məclisi Əfqanıstandakı sülhməramlı kontingentin 2 dəfə artırılması barədə qərar qəbul edib.

Bəs 2020-ci ilin 10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanan üçtərəfli bəyanata uyğun olaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağda, xüsusən də ermənilərin indi yaşadığı Xankəndi və iki rayonda müvəqqəti yerləşdirilən, adına sülhməramlı deyilən, əslində isə tam fərqli missiya həyata keçirən Rusiya "sülhməramlıları" nə işlə məşğuldur?

Hazırda Qarabağda üçtərəfli bəyannaməyə zidd olaraq silahlı, qanunsuz erməni silahlı birləşmələri fəaliyyət göstərir. Burada onların əsas planı Azərbaycana qarşı terror və təxribat həyata keçirməkdir. Bu təxribatlarda Azərbaycan əsir götürülən silhahlı erməniləri haqlı olaraq terrorçu kimi mühakimə edir. Bu, beynəlxalq hüquq çərçivəsinə uyğundur. Rusiya antiterror təlimlərdə maraqlıdırsa, ilk növbədə burada silahlı erməni birləşmələrini çıxarsalar regionda sülhün və təhlükəsizliyin təminatı kimi çıxış edə bilərdilər. Bununla da Azərbaycan ictimaiyyətinin dəstəyini alardılar. Amma, Rusiya tərəfi vəziyyəti mürəkkəbləşdirir, sülhməramlı kimi deyil, birtərəfli olaraq ermənilərin müdafiəsini həyata keçirir. "Antiterror" adı ilə keçirilən təlimlərin əsas məqsədi burdakı hərbi kontingentin döyüş hazırlığını inkişaf etdirməkdir.

Atəşkəs rejiminin pozulması halları barədə məlumat toplamaq, bu məlumatları dərhal sülhməramlı qüvvələrin komandanlığına çatdırmaq, eyni zamanda tranzit nəqliyyatın təhlükəsizliyini qorumaq və mülki şəxslərə qarşı qanunsuz hərəkətləri durdurmaq vəzifəsi onlara həvalə edilib. Sülhməramlılar əməliyyat bölgəsində, sülhməramlı kontingentin bir hissəsi olan hərbi polis bölmələrinin vəzifələrini də yerinə yetirməlidirlər. Amma Azərbaycan ictimaiyyəti başqa, fərqli bir mənzərənin şahidi olur. Ötən il yarım müddət ərzində Rusiya sülhməramlıları öz missiyalarını yerinə yetirmək əvəzinə səlahiyyət həddini aşaraq kənar işlərə qol qoyublar. Qanunsuz tikinti işləri, Rusiya dövlətinə və rus xalqına aid mərkəzlərin açılması, bölgənin ruslaşdırılması kimi neqativ işlərlə məşqul olmağa da rus sülhməramlıları vaxt tapırlar. Rusiya sülhməramlı kontingentinin müşahidə məntəqələrindəki hərbçiləri 24 saat fasiləsiz Laçın dəhlizi ilə nəqliyyat vasitələrinin və insanların təhlükəsiz hərəkətini, sənədlərin və nəqliyyat vasitələrinin yoxlanılmasını təmin etmək əvəzinə hərbçilər daha çox ermənilərlə azərbaycanlıların təmasını maksimum dərəcədə əngəlləməyə çalışırlar. Əgər 5 il ərzində Rusiya sülhməramlıları iki xalq arasında etimad mühiti yaratmaq istəyirlərsə onda təmasların, əlaqələrin əngəllənməsi nə deməkdir? Hələ sülhməramlıları müvəqqəti xidmət apardığı ərazilərdə erməni silahlı birləşmələrinin tör-töküntülərinin hələ də mövcud olması bu missiyanın uğursuzluğundan xəbər verir. Bəzi rəqəmlərə görə, Rusiya sülhməramlılarının gözü qarşısında erməni silahlıları istədiyi "xidmət"i aparırlar. Ermənilərin Laçın dəhlizi ilə hərəkətinə heç bir manеə olmadığı, heç bir yoxlamadan keçmədiyi halda, azərbaycanlılara aid maşınların hərəkətinin əngəllənməsi, məhdudiyyətlərin qoyulması da narazılıq yaradan səbəblərdəndir.

Bəs "sülhməramlılar"ın bu addımında əsl məqsəd nədir? Ekspertlər buna müxtəşlif tərəfdən şərh edirlər. Bəziləri qeyd edir ki, Rusiya sülhməramlıları missiyalarına xələl gəlməməsi, iki xalq arasında təmasların baş tutacağı təqdirdə müəyyən anlaşılmazlıqların, hətta toqquşmaların baş verməməsi üçün bəzi tədbirlərin görülməsinə ehtiyac var. Digərləri isə Rusiya hərbçilərinin bölgədə daha uzun müddətdə qalması üçün bunu Moskvanın gedişi kimi təqdim edir. Başqa bir ekspertlər isə masada bəyanatın və bu bəyanatda konkret vaxtın olduğunu əsas gətirərək Rusiya sülhməramlılarının konkret məsuliyyəti olduğunu və bundan kənara çıxacağı təqdirdə sonucuna da qatlanacağı qənaətindədirlər.

Görünən isə budur ki, Qarabağda müvəqqəti olaraq yerləşdirilmiş Rusiya sülhməramlılarının missiyası kağız üzərində qalıb, rus hərbçilər daha çox erməni maraqlarından çıxış etməyə həvəsli görünürlər. Amma unutmamalıdırlar ki, Azərbaycan ötən əsrin 90-cı illərindəki Azərbaycan deyil, onun hər daşını, torpağının hər qarışını qorumağa qadir Müzəffər Ordusu var!

***V.VƏLİYEV***





# Azərbaycan və Pakistan arasındakı diplomatik münasibətlər yeni mərhələdə

**Azərbaycan müstəqil dövlət olaraq bütün sahələrdə olduğu kimi, xarici siyasətlə bağlı qanunvericilik bazasının yaradılması və beynəlxalq konvensiyalara qoşulmaq istiqamətində böyük uğurlar qazanıb. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi, xarici siyasətinin həyata keçirilməsi istiqamətində də ardıcıl işlər görüldü. Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınmağa başladı, bir sıra dövlətlərlə diplomatik əlaqələr quruldu.**

Ümummilli Liderin hazırladığı mükəmməl xarici siyasət strategiyasının məntiqi nəticəsi olaraq, ölkəmiz bütün regional məsələlərdə həlledici söz sahibinə çevrildi. Müstəqil Azərbaycanın Pakistanla diplomatik əlaqələri 1992-ci ilin iyun ayının 9-da qurulmuşdur. Hər iki ölkə bir-birinə sıx dostluq əlaqələri ilə bağlıdır. Xatırladaq ki, Pakistan Sovet İttifaqının süqutundan sonra müstəqillik əldə edən Azərbaycanı tanıyan ikinci dövlətdir. Bakıda Pakistan səfirliyi 1993-cü ildə açılmışdır. Azərbaycan İslamabadda öz diplomatik missiyasına 1997-ci ilin avqustunda başlamışdır. Münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri xüsusi rol oynayıb, bir sıra vacib sənədlər imzalanıb. Əməkdaşlıq siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, müdafiə və digər sahələrdə davam etdirilir. Pakistan və Azərbaycan arasındakı mədəni irs, qlobal və regional məsələlərlə bağlı əməkdaşlıq dövlətlərarası münasibətlərin yüksək səviyyədə olduğunu göstərir.

1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqarinin Azərbaycanda rəsmi səfərdə olması və iki ölkə arasında bir sıra sənədlərin, o cümlədən, Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının yaradılması haqqında Protokolun imzalanması, "Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Əməkdaşlıq haqqında Müqavilə"nin bağlanması, bu əlaqələrin daha da genişlənməsinə səbəb olmuşdu. 9 aprel 1996-cı ildə isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pakistana rəsmi səfəri ölkələr arasında münasibətlərin inkişafına xüsusi təkan verib.

## "PAKİSTAN İLƏ AZƏRBAYCAN ARASINDA ÇOX YAXŞI ƏLAQƏLƏR, DOSTLUQ ƏLAQƏLƏRİ VAR"

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci il aprelin 12-də Pakistana 2 günlük rəsmi səfər edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Pakistan Prezidenti Pərviz Müşərrəfin görüşündə ölkələrarası münasibətlər müzakirə olunub, nəqliyyat, informasiya və kommunikasiya, aviasiya, mədəniyyət, maliyyə və təhsil sahəsində 6 əməkdaşlıq sazişi imzalanıb. Keçirilən görüşlər, imzalanan bu və ya digər sənədlər Azərbaycan ilə Pakistan arasında əməkdaşlığın davamlı olduğunu göstərir.

Pakistan bizim torpaqlarımızın işğalı səbəbindən Ermənistanı tanımayan və Ermənistanla diplomatik əlaqələr qurmayan az sayda ölkələrdən biri olmuşdur. Azərbaycanın suverenliyini ilk tanıyan ölkələrdən biri kimi Pakistan ölkəmizlə siyasi, iqtisadi və mədəni əlaqələrin yeni tarixi şəraitə münasib şəkildə yenidən qurulmasına çalışmışdır. Həmçinin, Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Azərbaycana dəstəyini möhkəmləndirmək üçün Xocalı faciəsini genosid kimi tanımışdır. Azərbaycan da öz növbəsində Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəkləyir və məsələnin həllində qardaş Pakistanın yanında olduğunu dəfələrlə bəyan etmişdir. Azərbaycanın Qarabağ uğrunda ağır müharibə şəraitində yaşadığı dövrlərdə beynəlxalq münasibətlərdə Pakistan rəsmilərinin dünya dövlətlərini BMT, İKT kimi nüfuzlu təşkilatlarda Ermənistanı təcavüzkar ölkə kimi tanınmasına çağırması böyük əhəmiyyət daşıyır. Dövlət müstəqilliyimizin ilk illərindən Ümummilli Lider Heydər Əliyev Pakistan-Azərbaycan münasibətlərinə böyük önəm verərək iki ölkə arasında olan münasibətləri dəyərləndirərək bu əlaqələri belə səciyyələndirirdi: "Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimizin üzərində qurulub".

Hazırda Azərbaycan-Pakistan əlaqələri yeni mərhələyə daxil olub. Pakistan Azərbaycana yaxın müttəfiq ölkələrdən biridir və Vətən müharibəsi zamanı Azərbaycanın haqlı mövqeyini müdafiə etdi. Ermənistanın Azərbaycana qarşı təcavüzünə, terrorçuluğuna, mülki insanlara qarşı hücumlarına Pakistan hər zaman mövqeyini bildirdi və Azərbaycana dəstək nümayiş etdirdi və yanımızda olduqlarını sərgilədilər. Vətən müharibəsində Pakistan Senatı və Milli Assambleyası tərəfindən qətnamələr qəbul edildi. Belə ki, Pakistan Senatında Kabinet Katibliyi üzrə Daimi Komitəsi tərəfindən Ermənistanın ölkəmizə qarşı təcavüzünü pisləyən və Azərbaycana dəstək ifadə edən qətnamənin yekdilliklə qəbul edilməsi və s. möhkəm dostluğun əsl nümunəsidir. Təbii ki, bu münasibət dövlətlərimiz arasında əlaqələrin inkişafından və səmimi qardaşlıq münasibətlərindən qaynaqlanır. Azərbaycan Vətən müharibəsində kimin kim olduğunu bir daha gördü.

## AZƏRBAYCANA YAXIN MÜTTƏFİQ ÖLKƏ OLAN PAKİSTAN VƏTƏN MÜHARİBƏSİNDƏ ÖLKƏMİZƏ DƏSTƏK NÜMAYİŞ ETDİRƏRƏK YANIMIZDA OLDU

Pakistan-Azərbaycan əlaqələri həm də hərbi əməkdaşlıq müstəvisində inkişaf edir. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan Respublikası ilə Pakistan arasında 2002-ci ildə imzalanan müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında saziş bunun bariz nümunəsidir. Qeyd olunan sənədə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunub. Bu müqavilə ilə dövlətlərimiz arasında hərbi əlaqələr daha da genişlənib. 2020-ci ilin sentyabrın 27-də Azərbaycana qarşı işğalçı Ermənistanın həyata keçirdiyi hərbi təxribata Pakistanın qardaş Türkiyə ilə birlikdə Azərbaycanın yanında olduğunu bəyan etməsi Azərbaycan-Türkiyə-Pakistan qardaşlığını bütün dünyaya nümayiş etdirdi. Cənab Prezident müharibənin ilk günlərindən Pakistanın ali rəhbərliyinin ərazi bütövlüyümüzün bərpasında Azərbaycana tam dəstəklərini ifadə etdiklərini bildirmişdi: "Bu, bizim əməkdaşlığımızın çox mühüm elementi və qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir. Pakistanın digər yüksək rütbəli rəsmiləri, parlament üzvləri və ictimai xadimlər Ermənistan ordusunun tam məğlubiyyəti və Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük müharibə ərzində bizi dəstəklədilər". Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir.

Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan dövlətlərarası münasibətlərdə Azərbaycan-Türkiyə-Pakistan əlaqələrinin xüsusi yeri və çəkisi var və bu danılmazdır. Hər üç ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq mövcud münasibətlər keyfiyyətcə yeni müstəviyə keçib. Görülən işlərin davamı olaraq, Milli Məclisdə Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin üçtərəfli görüşündə Bakı Bəyannaməsinin imzalanması dövlətlərarası münasibətin daha dərinləşməsinə, eləcə də strateji əlaqələrin möhkəmlənməsinə öz töhfələrini vermiş oldu. Bakı Bəyannaməsi ölkəmizin regionda və beynəlxalq münasibətlər sistemində artan roluna, nüfuzuna söykənir. Tarixi köklərə malik olan Azərbaycan-Türkiyə-Pakistan münasibətləri hazırda yeni mərhələdədir.

44 günlük Vətən müharibəsində Azərbaycan öz yanında məhz qardaş olan ölkələri görmüş oldu. Pakistan Azərbaycana yaxın müttəfiq ölkədir və Vətən müharibəsi zamanı da Azərbaycanın haqlı mövqeyini müdafiə etmiş oldu. Ermənistanın Azərbaycana qarşı təcavüzünə, terrorçuluğuna, mülki insanlara qarşı hücumlarına Pakistan da hər zaman mövqeyini bildirdi. Azərbaycana dəstək nümayiş etdirərək yanımızda oldu. Bu dəstək xalqımız tərəfindən çox böyük rəğbət və sevgi ilə qarşılandı, şəhər və kəndlərimizdə Azərbaycan bayrağı ilə yanaşı, Türkiyə və Pakistan bayraqları da dalğalandırılır.

## HEYDƏR ƏLİYEV FONDU AZƏRBAYCAN VƏ PAKİSTAN ARASINDA DOSTLUQ MÜNASİBƏTLƏRİNİN DAHA DA GENİŞLƏNMƏSİNƏ TÖHFƏLƏRİNİ VERİR

Millət və dövlət maraqları baxımından, müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirərək cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilmiş Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məram, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin ali ideallarını özündə ehtiva edir. Firavanlığı yaratmaq, həyat tərzində sağlam mühiti formalaşdırmaq, insanların fiziki sağlamlığına diqqət yetirmək, sülhün, əmin-amanlığın çarçısına çevrilmək və s. fondun məqsədi olaraq, özünü büruzə verir. İctimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyət, qayğıya ehtiyacı olan uşaqlara, təhsilə diqqət və s. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın humanizm prinsiplərindən yaranır. Onu da vurğulayaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında əhəmiyyəti ilə seçilir. Bu gün deyə bilərik ki, dünyanın bütün ölkələrində Fondun həyata keçirdiyi layihələrə münasibət yüksəkdir. Mehriban xanım Əliyevanın dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də elə bu bəşəri dəyərlərə münasibətinin və fəaliyyətinin nəticəsidir. Azərbaycanın Birinci Xanımı sivilizasiyalararası dialoqa töhfə verməklə yanaşı, məktəblərin tikintisinə, dini məbədlərin bərpasına da köməklik göstərir. Azərbaycan və Pakistan arasında dostluq münasibətlərinin daha da genişlənməsinə töhfəsini verir. Pakistanda talassemiya və hemofiliyadan əziyyət çəkən xəstələr üçün Heydər Əliyev Fondunun dəstəyi ilə xeyriyyə aksiyasının keçirilməsi də məhz xeyriyyəçilik əməllərinin göstəricisidir. Aksiya çərçivəsində İslamabad şəhərində yerləşən Sundas lassemiya Mərkəzinə Fondun dəstəyi ilə alınmış qan kisələri və tibbi ləvazimatlar, ərzaq paketləri və hədiyyələr təqdim edilib. Mehriban xanım Əliyeva çıxışlarının birində vurğulamışdır ki, Heydər Əliyev Fondu tərəfindən bir sıra mühüm layihələr və xeyriyyə proqramları Pakistanın müxtəlif yerlərində icra olunur: "Çox fərəhlənirik ki, birinci layihəmiz - Müzəffərabadda 2005-ci ilin oktyabrında güclü zəlzələ nəticəsində dağılmış qızlar məktəbinin tikintisi çox uğurlu olmuş və gələcək əməkdaşlığımız üçün yaxşı əsas yaratmışdır". Mehriban xanım Əliyevanın təşəbbüsü ilə zəlzələdən ən çox dağılan bölgələrdən olan Müzəffərabadın Rara bölgəsində 500 şagirdlik qızlar məktəbi tikilib. Xatırladaq ki, Heydər Əliyev Fondu tərəfindən Pakistanda silsilə humanitar yardımlar proqramı çərçivəsində "Edhi Home" kimsəsizlər evində sığınacaq tapan uşaqlara tibbi baxış və Hepatit B virusuna qarşı peyvəndləşdirmə aparılmış, Peşavər şəhərində "Akbar Care" serebral iflic institutunda imkansızlar üçün pulsuz müayinə təşkil edilmişdir. Eyni zamanda, Xayber Paxtunxva əyalətinin Laki Marvat şəhərinin qadın və uşaq xəstəxanasında açıq ürək əməliyyatları aparılmış, Hamza Fondu (Peşavər) üçün müasir qanköçürmə avadanlığı, laboratoriya ilə təchiz edilmiş təcili tibbi yardım maşını və iki min qanköçürmə paketi alınmış, Xayber Göz Fondunun yeni binasının tikintisi üçün maddi yardım göstərilib.

## HEYDƏR ƏLİYEV FONDUNUN CƏMİYYƏTDƏ VƏ XARİCDƏ ARTAN NÜFUZU

Pakistan rəhbərliyi tərəfindən Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya Pakistanın ali dövlət mükafatı - "Hilal-e-Pakistan" ordeninin təqdim edilməsi də təsadüfi deyildi. Həyata keçirilən xeyirxah işlər Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqətin, habelə, bu gün Vətən, xalq naminə aparılan məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürü olmaqla yanaşı, həm də Fondun cəmiyyətdə və xaricdə artan nüfuzunun ifadəsidir. Fondun Pakistanda həyata keçirdiyi layihələr Azərbaycan və Pakistan xalqlarının dostluq və qardaşlıq münasibətlərinin inkişafına öz töhfəsini verir. Fondun Pakistanda həyata keçirdiyi bütün sosial və humanitar layihələr Pakistanla Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinin daha da gücləndirilməsinə və dərinləşdirilməsinə xidmət edir. Əlbəttə ki, Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələri səmimi münasibət və möhkəm təməllər üzərində qurulub. Mehriban xanım Əliyeva tərəfindən icra olunan sosial və humanitar layihələr onun Pakistana olan səmimi münasibətinin təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Şuşa, biz qayıtdıq"





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən 2022-ci ilin "Şuşa" ili elan edilməsi ilə əlaqədar 24 may 2022-ci il tarixdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı aparatında "Şuşa, biz qayıtdıq" mövzusunda fəal gənclərlə tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açmış, Ulu öndər Heydər Əliyevin eləcə də ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Seyfəddin Əliyev çıxış edərək bildirdi ki, ölkə Prezidenti cənab İlham Əliyev Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar 2022-ci ili məhz "Şuşa ili" elan etməsi çox mütərəqqi bir addımdır. Şuşa Azərbaycan mədəniyyətinin, xüsusilə musiqinin, muğam sənətinin beşiyidir. Eyni zamanda, Şuşa Azərbaycan poeziyasının, ədəbi dilinin vətəni sayılır. Qarabağın tacı olan Şuşa Azərbaycan xalqı üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Şuşa şəhərinin zəngin tarixindən, mədəni irsindən, işğal dövründə məruz qaldığı dağıntılardan danışan təşkilat sədri vurğulayıb ki, 30 illik işğal dövründə erməni vandallığına məruz qalan ərazilər Prezident İlham Əliyevin təşəbbüsü və qayğısı, Heydər Əliyev Fondunun proqram və layihələri ilə bərpa olunur, yenidən qurulur. O qeyd edib ki, Şuşa şəhəri 2020-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi, müzəffər Azərbaycan Ordusunun şücaəti nəticəsində işğaldan azad olunmuşdur. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsini qalibiyyətlə başa vuraraq zəngin irsinə yeni şərəfli səhifə yazdı. Bu müharibə xalqımızın milli həmrəyliyinin, öz haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi oldu. Bu qalibiyyət Azərbaycanda ulu öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan, ötən illər ərzində Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə yazıldı.



Seyfəddin Əliyev qeyd etdi ki, keçən il ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı" elan olunmasından sonra bir sıra tədbirlər - "Xarıbülbül" festivalı, "Vaqif Poeziya Günləri", eləcə də cari ilin aprelin 22-də Dünya Azərbaycanlılarının 5-ci Qurultayının cənnət Qarabağın döyünən qəlbi mədəniyyətimizin paytaxtı və tarixi qələbəmizin rəmzi olan Şuşa şəhərində keçirilməsi hər bir azərbaycanlı üçün əlamətdar hadisədir.Tədbirdə iştirak edən gənc fəallardan Fərid Əyyubzadə, Ləman Bəyoğlanlı, Abid Abıyev və başqaları çıxış edərək Ali Baş Komandan İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında bir amal uğrunda səfərbərliyi Vətən müharibəsində Azərbaycanın parlaq Qələbəsini şərtləndirən əsas amillər olduğunu qeyd etdilər.

***Rəfiqə***



# YAP İmişli rayon təşkilatında layihə qalibləri mükafatlandırılıb



YAP İmişli rayon təşkilatının və Ümid Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş 15 mart 2022-ci il tarixdə start götürmüş "Ümummilli liderimizi tanıyaq" və "Qarabağ Azərbaycandır!" layihəsinə yekun vurulub. SİA xəbər verir ki, bu məqsədlə 24 may 2022-ci il tarixdə YAP İmişli rayon təşkilatında tədbir keçirilib. Tədbirdə ümumtəhsil məktəblərinin direktorları, valideynlər, ziyalılar, mətbuat nümayəndələri və qalib gələn şagirdlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ümid Tədris Mərkəzinin təsisçisi Ceyhun Quliyev bildirib ki, layihə rayonun 8 ümumtəhsil məktəbinin 950 şagirdi arasında keçirilib. İki mərhələdən ibarət layihədə Ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətindən, Ali Baş Komandan İlham Əliyevin Qarabağ zəfərindən bəhs edən inşa müsabiqəsinin, müxtəlif intellektual oyunların qalibləri arasından seçilən 20 ən yaxşı şagird müəyyən edilib.

Tədbirdə çıxış edən YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev Ulu Öndərin müstəqil Azərbaycanın quruculuğunda göstərdiyi misilsiz fədakarlıq, eləcə də Sovet dönəmində onun rəhbərliyi ilə həyata keçirilən siyasi fəaliyyətdən bəhs edib. Müasir Azərbaycanın mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik missiyasını öz üzərinə götürən Heydər Əliyevin xilaskarlıq missiyasını şərəflə yerinə yetirməklə, nəinki xalqımızın ən parlaq siması kimi, eləcə də dünya siyasi elitasının görkəmli şəxsiyyətlərindən biri qismində tarixdə silinməz iz qoyduğunu qeyd edib. Natiq həmçinin həm ata vəsiyyətini, həm də Prezident andını yerinə yetirən Ali Baş Komandan İlham Əliyevin Qarabağ zəfərindən söhbət açaraq rəşadətli ordumuzun, xalqımızın öz rəhbəri ilə sarsılmaz birliyinin, Prezident İlham Əliyevin sərkərdəlik məharətinin nəticəsində nail olduğumuz qələbədən danışıb.

Çıxış edənlər Ümummilli liderimiz Heydər Əliyev və Ali Baş Komandan İlham Əliyevin bugünki inkişafın zirvəsində olan dövlətimiz üçün gördüyü mühüm işlərdən danışıblar. Sonda qalib şagirdlərə sertifikatlar və qiymətli hədiyyələr təqdim olunaraq xatirə şəkli çəkilib.

# İgidlər ölməz, vətən bölünməz!

## Ağdam rayonunda şəhid Səxavət Məmmədovun xatirəsi ehtiramla yad olunub

Ağdam rayonunda şəhid Məmmədov Səxavət Adıgözəl oğlunun doğum günündə xatirəsi anılıb. YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, Ağdam rayon icra hakimiyyətinin əməkdaşları, Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Samir Məmmədov, eləcə də şəhidin ailə üzvləri, ərazi partiya təşkilatının fəalları, rayon ictimaiyyətinin nümayəndələri və rayon məktəbinin şagirdləri Vətən müharibəsi şəhidi Səxavət Məmmədovun doğum günü münasibətilə məzarını ziyarət edib, önünə gül dəstələri düzərək, şəhidimizin əziz xatirəsini böyük ehtiramla yad ediblər. Məktəblilər şəhidlərimizin əziz xatirəsinə həsr edilmiş şeirlər söyləyiblər. Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə" medal şəhid Səxavət Məmmədovun övladına təqdim olunub. Şəhidimizin ailə üzvləri dövlət səviyyəsində onlara göstərilən diqqət və qayğıya görə Ölkə Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, Səxavət Məmmədov 2020-ci il sentyabr ayının 29-da Vətən müharibəsi döyüşlərində şəhidlik zirvəsinə yüksəlib. Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən o, ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Zümrüd Bayramova***





ARAŞDIRMA



# Avtomobillərin sayı artır - TIXAC, YOXSA İNKİŞAF?

**Avtomobil, sərnişin və ya yük daşımaq üçün nəzərdə tutulmuş motorlu və təkərli quru nəqliyyat vasitəsidir. Qeyd edək ki, avtomobil sənayesi dünyada olduğu kimi Azərbaycanda da yüksək sürətlə inkişaf edir.**

Avtomobillər icad edildiyi gündən bu günə qədər onlarla müxtəlif proses və üsullardan keçmişdir. Avtomobillər sayəsində insanlar bir nöqtədən digərinə ən asan və rahat şəkildə gedə bilirlər ki, bu da avtomobillərin insanların üzərində qurduğu ən böyük və təsirli amildir.

Dünyada ilk dəfə Karl Benz avtomobillərin ixtiraçısı kimi qeyd olunur. Bunun səbəbi Benz-in benzinlə işləyən, daxili yanma mühərrikli avtomobildən istifadə edən ilk şəxs olmasıdır.

Avtomobillər populyarlaşandan bəri davamlı olaraq işlənmiş qazları havaya buraxır. Bu egzoz qazları səbəbiylə Yerin mövcud atmosfer təbəqəsi çirklənməyə məruz qalır. Xüsusilə də son illərdə avtomobil alışlarının artması ilə dünyanın təbii tarazlığı pozulma nöqtəsindədir. Avtomobillərin buraxdığı egzoz qazları səbəbiylə qlobal istiləşmə kimi insanların heç vaxt geri dönüb düzəlməyəcəyi hadisələr baş verir. Bu səbəbdən Tesla kimi avtomobil şirkətləri buraxdıqları avtomobillərin demək olar ki, hamısının neftlə deyil, elektrik enerjisi ilə işləyəcəyini açıqladı. Beləliklə, havaya heç bir egzoz qazı atılmayacaq və Yer kürəsinin təbii tarazlığı bərpa olunacaq və qlobal istiləşmə kimi problemlər meydana gəlmədən aradan qalxacaq.

Avtomobillərin insanlara təsiri sonsuzdur və ağır yüklərin daşınmasında da aktiv rol oynayır. Avtomobillər sayəsində insanlar öz işlərinə, evlərinə, qohum-tanışlarına, istədikləri ölkə və şəhərlərə gedirlər. Həmçinin, bu səbəbdən də avtomobillərin insan həyatında böyük rolu var.

Avtomobilin tarixi 19-cu əsrdə enerji mənbəsi olaraq buxarın istifadə edilməsi ilə başlayır və daxili yanma mühərriklərində neftin istifadə edilməsi ilə davam edir. Hal-hazırda alternatif enerji mənbələri ilə işləyən avtomobillərin istehsal edilməsi mövzusunda işlər sürətlə davam edir.

1907-ci ildə 250 min avtomobil var idi, 1914-cü ildə Ford Model T-nin istehsal olunması ilə 500 minə çatmış, İkinci Dünya Müharibəsindən biraz əvvəl bu say 50 milyonun üzərinə çıxmışdı. Müharibədən sonra keçən otuz il ərzində avtomobil sayı altı qatına çıxmış və 1975-ci ildə 300 milyona çatmışdı. İllik avtomobil istehsalı 2007-ci ildə 70 milyonu keçmişdi.

Məlumata görə, 2018-ci ildə qlobal avtomobil quru nəqliyyatı istehsalı 91 milyon 538 min 640 ədəd olub. Əvvəlki illərlə müqayisədə qlobal istehsal 6,3 faiz azalıb.

Avtomobil Sənayesi Birliyi 2021-ci il üçün istehsal və ixrac rəqəmlərini və bazar məlumatlarını açıqlamışdı. Belə ki, 2021-ci ildə ümumi istehsal 2020-ci ilə nisbətən yüzdə 2 azalaraq 1 milyon 276 min 140 ədədə, avtomobil istehsalı isə yüzdə 8 azalaraq 782 min 835 ədədə çatdı.

Alman Avtomobil Birliyinin məlumatına görə Almaniyada avtomobil istehsalının 2018-ci ilə nisbətən 9 faiz azalaraq, keçən il 4 milyon 661 min 800-ə düşdüyü bildirilib. Beləliklə, ölkədə sözügedən istehsal 1996-cı ildən bəri illik olaraq ən aşağı səviyyəyə düşüb.

Son zamanlar istehlakçıların elektrik və hibrid avtomobillərə marağının ölkəmizdə hər zamankindən daha çox artması isə bir çox amillərlə bağlıdır.

Qeyd edilən araşdırmalar göstərir ki, Azərbaycanla yanaşı qardaş ölkə Türkiyədə istehlakçıların elektrik və hibrid avtomobillərə marağı sürətlə artır. Növbəti alacaqları avtomobilin hibrid və ya elektrikli olacağını deyən türk istehlakçıların nisbəti keçən ilə nisbətən 2022-ci ildə 11 bal artaraq yüzdə 27 olub.

Türkiyəli istehlakçıların elektrikli avtomobillərə marağı ilk növbədə bu nəqliyyat vasitələrinin ətraf mühitə daha az zərər verməsi ilə əlaqədardır.

Bəs, gəlin görək dünyada və ölkəmizdə avtomobillərin sayının artması nə ilə bağlıdır? Bu tıxac yaradan amil, yoxsa inkişafdır? Yəni, avtomobillərin sayının artması nəyin göstəricisidir? Dünyada və Azərbaycanda vəziyyət necədir? SİA məsələ ilə bağlı araşdırma apararaq nəqliyyat üzrə ekspert və iqtisadçıların fikirlərini öyrənib.

**Nəqliyyat eksperti Elməddin Muradlı:** ”Azərbaycanda avtomobilləşmə səviyyəsi digər MDB ölkələri ilə müqayisədə o qədər də qorxunc bir həddə deyil.



Bu nə təhlükəli, nə də narahatlıq doğuran səviyyədədir. Yəni, bu göstərici bizi narahat etməməlidir.

Ölkəmiz inkişaf edir, vətəndaşlarımızın güzəranı yaxşılaşır, avtomobilləşməyə maraq çoxalır, insanlar imkan tapan kimi maşın alır. Sadəcə problem bundadır ki, insanlar niyə bu qədər avtomobil alır? Bu sualın cavabı çox maraqlıdır? Çünki ictimai nəqliyyat bərbad vəziyyətdədir. Məsələn, rayondan Bakıya gəlmək üçün vətəndaşlar normal avtobuslar tapa bilmirlər, avtovağzallar bərbad vəziyyətdədir. Həmçinin, avtovağzallar olan yerdə kənarda alver gedir. Yəni, nəqliyyat və logistika problemlərimiz var. Ona görə də hər bir kəndli imkan tapan kimi özünə maşın alır ki, şəhərə də bununla gəlib getsin. Bu şəhər sakinlərinə də aiddir. Bəs, dünyada və Avropada vəziyyət necədir? Dünyada insanlar maşın alır və həftəsonu istifadə edərək rayona filan gedir. Bizdə isə maşın alan insan onu şəhərdə də, kənddə də, məhəllədə də, çörək almağa gedəndə də sürür. Yəni, hər zaman bu maşınla hərəkət edir. Bizim problemimiz budur.

Bakı şəhəri üzrə avtomobilləşmə çox yüksəkdir. Bakıda yol təsərrüfatı, yolların həcmi, uzunluğu nəqliyyat vasitələrinin sayına paralel deyil. Yəni, yol təsərrüfatımız aşağı səviyyədədir və yollarımız azdır. Həmçinin, parkinq yerlərimiz də azdır və maşınların sayı da çoxdur.

Eyni hal taksidə də baş verir. Məsələn, taksi duracaqlarının və taksilərin sayına baxsaq görərik ki, heç onun üçdə biri qədər parkinq yeri yoxdur. Avtomobilləşmədə də eyni vəziyyətdir. Yəni, biz nəqliyyat infrastrukturunu qurmamışıq. Amma avtomobilləşməyə imkan yaratmışıq ki, bu proses getsin.

Bəs, niyə bu proses gedir? Çünki ictimai nəqliyyat sıfır səviyyəsindədir, metro şəbəkəsi çox zəif şəkildə inkişaf edir. Başqa ölkələrlə müqayisədə baxıb görürük ki, şəhərdən şəhərə metro çəkiblər, elektrik qatarları işləyir. Bizdə isə dəmiryolunda ciddi problemlər var. Metro inkişaf etmir və strategiyası yoxdur. Metro hara xətt çəkmək istəyirsə, məlum olur ki, orada məskunlaşma var və imkan yoxdur. Lakin metro bundan sonrakı 50-100 il sonra üçün plan hazırlaya bilərdi və aidiyyatı qurumların qarşısında dövlət proqramı çərçivəsində məsələ qoyulardı ki, həmin xətt üzrə heç bir bina, tikinti işi aparılmasın. Bu formada konsepsiya ilə işləmək lazımdır. Başqa bir problem yoxdur.

BNA ictimai nəqliyyatın gücləndirilməsi üçün yaradıldı və xeyli vəsait ayrıldı. Amma məlum oldu ki, dövlətin xərclədiyi milyonlar havaya sovrulub. Bu gün 300 avtobus işlək vəziyyətdə deyil və tökülüb dağılır. ”BakıKart ”sistemi də bərbad vəziyyətdədir. Karta ödəniş etmək üçün küçələrdəki terminallar getdikcə yoxa çıxır. Bəzi yerlərdəki yolların sarı torunun izi-tozu qalmayıb. Nə iş görüblərsə hamısı müvəqqəti görüntü xatirinə olub. Ona görə də insanlar avtomobilləşməyə maraq göstərir ki, təki avtobusda o sıxlıqda getməsin. Avtomobil alırıq ki, rahatlıq tapaq lakin tıxaclarda çürüyürük.

İctimai nəqliyyatı gücləndirməliyik. Biz bundan sonra yol şəbəkəsini genişləndirmək barədə düşünməməliyik. Piyada səkiləri yüksək səviyyədə təmir olunmalıdır. Piyada səkilərində inşa olunan binaların artırmaları olan kafelər, restoranlar, ayaqqabı təmiri yerləri və s. hamısı birmənalı olaraq sökülməlidir. Piyadalar üçün geniş imkanlar yaradılmalıdır. Əlavə yol şəbəkəsi yaratmağa heç bir ehtiyac yoxdur. Lakin şəhər ətrafında kənar dairəvi yollar mütləq tikilməlidir. Şəhərin mərkəzinə ictimai nəqliyyat vasitəsi ilə gəlmək lazımdır. İnsanlar yavaş-yavaş bu vərdişləri dərk edəcəklər. Bütün dünya bizim indi yaşadığımız prosesləri yaşayaraq keçib. Bu təcrübələri öyrənib tətbiq etmək lazımdır. Bununla da biz inkişafın və zərərin nə olduğunu başa düşəcəyik”.

**Yol hərəkəti üzrə ekspert Ərşad Hüseynov:** ”Hazırda ölkəmizdə 1 milyon 250-300 min arası minik avtomobili var. Real minik avtomobillərinin sayı 1 milyon 250-mindir. Amma ümumilikdə mexaniki nəqliyyat vasitələrinin sayı 1 milyon 400 mindən artıqdır. Bu 1 milyon 400 minə həm traktor, həm bütün növ yük avtomobilləri, minik avtomobilləri və həm də avtobuslar və s. aiddir.



Dünya ilə müqayisə etsək görərik ki, əhalinin say nisbəti ilə avtomobillərin sayı bizim ölkədə orta statistik dünya göstəricilərindən aşağıdır. İnkişaf etmiş və yüksək inkişaf nəticəsində avtomobilləşmiş ölkələrdən isə hətta 5 dəfə geri qalırıq.

Qərbi-Avropa ölkələrində avtomobilləşmə səviyyəsi 60 faizdən yuxarıdır. ABŞ-da isə 80 faizin üzərindədir. Yəni, bizdə avtomobillərin sayı o qədər də çox deyil. Lakin xaricdəkilər heç biri avotmobili tıxac yaradan amil hesab etmirlər. Bəs, niyə? Burada çox sadə bir sirr var. Biz burada iki əsas məsələni fərqləndirməliyik: avtomobillərin sayı və avtomobillərdən istifadə səviyyəsi. Bunlar fərqli məsələlərdir. Məsələn, dünyanın inkişaf etmiş nəqliyyat sistemi olan ölkələrdən Yaponiyada, Sinqapurda, Almaniya və Finlandiyada avtomobil parkı kifayət qədər genişdir. Burada əhalinin 60 faizinin avtomobili var. Amma tıxac olmur. Niyə? Çünki fərdi avtomobillərdən istifadə səviyyəsi aşağıdır və ictimai nəqliyyat mükəmməldir. Söhbət iri şəhərlərdən gedir. Bu səbəbdən də adamların fərdi avtomobili olsa belə, ictimai nəqliyyatdan istifadə edirlər.

Müqayisə aparsaq görərik ki, Azərbaycanda fərdi avtomobili olan insan özünün və bütün ailəsinin mobilliyini həmin avtomobilin hesabına təmin edir. Nəticədə, fərdi avtomobillərdən istifadə səviyyəsi avtomobilləşmiş ölkələrdəkindən yuxarı həddə çıxır. Buna görə də ölkəmizdə tıxac höküm sürür.

Xaricdə mikromobillik də inkişaf edir. Məsələn, velosipeddən kütləvi şəkildə və geniş istifadə edirlər. Baxırsan ki, adamın iki avtomobili var, amma həmin ailənin işləyən bütün üzvləri işə velosipedlə gedib gəlir. Bu iki məsələni biri-birindən fərqləndirdikdə görərik ki, bizim avtomobilləşmədən qorxmağımız lazım deyil.

Bəs, avtomobillərin sayının artması inkişaf, yoxsa tıxac yaradan amildir? Burada iki məsələni biri-birindən ciddi şəkildə fərqləndirmək lazımdır. Avtomobillərin sayının artması birmənalı olaraq inkişafdır. Yəni, insanların maddi rifahının və ölkənin iqtisadi durumunun yaxşılaşması müsbətdir. Bu sadəcə avtomobillərin sayının artması yox, həm də avtomobil parkının müasir və yeni olması da əsl inkişaf göstəricisidir.

Çalışmalıyıq ki, avtomobildən istifadə səviyyəsini aşağı salaq. Buradan da sual yaranır ki, bəs ABŞ-da niyə hər adamın adına avtomobil var? Xaricdə insanlar fərdi avtomobildən səhayət və istirahət üçün istifadə edirlər. Bunun üçün ictimai nəqliyyatı inkişaf etdirməli, şaxələndirməli, xidmət keyfiyyətini və komfortu yüksəltməliyik. Təbii ki, bu böyük şəhərlərimizə aiddir. Həmçinin, velosipedi tədricən real nəqliyyata çevirməliyik ki, insnalarımız bundan istifadə edərək avtomobillərini qarajda istirahət etdirsinlər. Düşünürəm ki, yanaşma belə olmalıdır”.

***Ayşən Vəli***

# “Paşinyanın irəli sürdüyü bu sərsəm şərtə...”

“Sirr deyil ki, Brüsseldə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə 5 saat davam edən gərgin müzakirələrin gündəliyi Azərbaycanın təqdim etdiyi 5 baza prinsip əsasında qurulmuşdu. Bilirsiniz ki, görüşdən sonra Aİ Şurasının Prezidenti cənab Şarlı Mişel bəyanat yaydı və açıqlamada ilk diqqət çəkən məqam, səslənən tezislərin faktiki olaraq Prezident İlham Əliyevin bir müddət öncə irəli sürdüyü 5 şərtə əsaslanması ilə bağlı oldu”. Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.



Onun sözlərinə görə, Şarl Mişel qeyd etdi ki, yaxın günlərdə Azərbaycan və Ermənistan arasında birgə sərhəd komissiyasının iclası olacaq və iclasda sərhədlərin delimitasiyası ilə bağlı proseslər, habelə, vəziyyətin stabilləşməsi məsələləri müzakirə olunacaq: ”Bildiyiniz kimi, bu məzmunu Azərbaycanın irəli sürdüyü baza şərtləri tam əhatələyir. Təsadüfi deyil ki, aprelin 6-dan bəri prosesi ləngidən Ermənistanın baş nazri nəhayət ki, müvafiq komissiyanın yaradılması barədə akt imzaladı”.

Deputat sözlərinə belə davam edib: ”Bilirsiz ki, eyni məzmunlu sənədi Azərbaycan Prezidenti də imzaladı və bu da cənab Mişelin açıqlamada da deyildiyi kimi, liderlərin gələcək sülh müqaviləsi üzrə müzakirələri davam etdirərək prosesləri irəliyə aparmaq niyyətlərinə əməli dəstək oldu.

Yekun bəyanatda əks olunan digər vacib məqam liderlərin nəqliyyat xətlərinin açılmasının vacibliyini vurğulayaraq Azərbaycanın qərbi ilə Naxçıvanı birləşdirəcək müntəzəm nəqliyyat kommunikasiya xətlərinin açılması və tranzit imkanları barədə prinsipləri razılaşdırması ilə bağlıdır. Qeyd edilir ki, yaxın günlərdə Baş nazirin müavinləri nəqliyyat kommunikasiya xətləri və beynəlxalq daşımalarla bağlı, gömrük məsələləri ilə bağlı işləri davam edəcəklər.

Bildiyiniz kimi, Zəngəzur dəhlizləri anlayışı cənab İlham Əliyevin ideyasıdır və ilk olaraq 10 noyabr bəyanatında əks olunmuşdu. Lakin İrəvan sonradan bu öhdəliklə bağlı mövqeyindən yayınırdı. Azərbaycan Prezidenti isə dəfələrlə, qətiyyətlə bu dəhlizin mütləq açılacağını bildirərək hətta, irəli sürdüyü 5 baza şərtdə də bu məsələyə yer vermişdi. Bu mənada, cənab Mişel əslində Azərbaycan Liderinin qeyd edilən mövzuda qələbəsini elan etmiş oldu. Görüşdə diqqət çəkən digər məqam, Ermənistan tərəfin irəli sürdüyü 6-cı şərtlə bağlı vəziyyət oldu. Düzdür, Paşinyanın irəli sürdüyü bu sərsəm şərtə Azərbaycan tərəfinin münasibəti aydın idi, lakin Brüssel görüşündə məsələyə dair reaksiyalar beynəlxalq ictimaiyyətdə maraq doğururdu. Şarl Mişel də bu kontekstdə çox maraqlı bir ifadə işlətdi və qeyd etdi ki, ”hər iki liderin diqqətinə Qarabağdakı etnik erməni əhalisinin hüquqları və təhlükəsizliyi məsələsini” çatdırıb. Gördüyünüz kimi, cənab Mişel ”Dağlıq Qarabağ” yox inzibati vahidimiz olan Qarabağ, ”Qarabağ xalqı yox”, ”Qarabağdakı etnik erməni” ifadəsi işlətməklə beynəlxlaq hüquqa əsaslanaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətini ifadə etdi. Heç şübhəsiz ki, bu Paşinyan 6 şərtinin gündəlikdə olma ehtimalını heçə endirdi. Bu o deməkdir ki, proseslərin gedişatı məhz Prezident İlham Əliyevin müəyyən etdiyi xəttə uyğun davam edəcək”.

*Ayşən Vəli*

---

**“İstər Brüssel görüşü, istərsə də Moskavada keçirilən görüşlərdə ən önəmli olan məsələ Ermənistanın öz üzərinə öhdəliklər götürməsidir. Başqa sözlə desək imzalanmış Bəyannamələr Ermənistanın üzərinə konkret öhdəliklər qoyur ki, bu da olduqca önəmlidir”. Bu sözləri SİA-ya açıqlamasında da politoloq Rəşad Bayramov bildirib.**

# POLİTOLOQ: “Qərb Ermənistandan üz çevirəcək”



Onun sözlərinə görə, Avropa İttifaqının vasitəçiliyi ilə keçirilən son görüş də bu istiqamətdə atılmış çox vacib bir addım oldu: ”Çünki məhz Ermənistan tərəfindən öhdəliklərin yerinə yetirilməməsi sülh istiqamətində atılan addımları əngəlləyir. Odur ki, bu öhdəliklərin yerinə yetirilməsinin vacibliyi ilə bağlı mütəmadi olaraq Ermənistana xəbərdarlıq edilməsi vacibdir.

Hər kəs görür ki, rəsmi İrəvanın hər vəchlə üzərinə götürdüyü öhdəliklərin icrasını uzatmağa çalışır. Bir tərəfdən Rusiyanın təzyiqləri ilə üz-üzə qalan, digər tərəfdən isə Brüsseldə götürdüyü öhdəliklərdən qaçmağın mümkün olmayacağın dərk edən Ermənistan rəhbərliyi isə uğursuz siyasi manevrlərlə danışıqlar prosesinin Rusiya ilə Qərb arasında geosiyasi rəqabət mövzusuna çevrilməsinə və bununla da vaxt qazanmağa çalışır. Ermənistan bu ikili oyunu təbii olaraq Avropanın maraqlarına cavab vermir. Odur ki, Paşinyanın Moskva səfərindən sonra yenidən Brüsseldə görüşün keçirilməsi rəsmi İrəvana götürdüyü öhdəlikləri xatırlatmaq baxımından önəmli idi.

Son görüşün qəbul olunmuş razılaşmalar baxımından kifayət qədər məhsuldar olduğunu deyə bilərik. Belə ki, birgə sərhəd komissiyasının birinci iclasının yaxın günlərdə Azərbaycan-Ermnistan sərhəddində baş tutacağı ilə bağlı razılıq əldə olunub. Belə bir razılşama əslində hələ bundan əvvəlki Brüssel görüşündə də razılaşdırılmış və görüşün məhz dövlətlərarası sərhəddə keçirilməsi də elə Ermənistan tərəfindən təklif olunmuşdur. Lakin bu razılşamanı elə İrəvan özü pozaraq görüşü təxirə salmış, daha sonra isə görüşün Moskvada keçirilməsi ilə bağlı təkliflə çıxış etsə də həmin görüş də Ermənistan tərəfindən pozulmuşdur. İndi görünən odur ki, Brüsseldə keçirilən son görüşdə Paşinyan öz oyunpozucu fəaliyyətindən geri çəkilməyə söz verib və ya buna məcbur edilib.

Görüşü məhsuldar edən digər vacib məqam kommunikasiya xətlərinin açılması və Zəngəzur dəhlizi ilə razılıqla bağlıdır. Belə ki, görüşdə Azərbaycanın qərb hissəsi ilə Naxçıvan və Azərbaycan ərazisindən Ermənistanın müxtəlif hissələri arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəlinib. Şarl Mişelin çıxışından və razılaşdırılmış bəyannamədən belə məlum olur ki, Zəngəzur dəhlizində və ya digər yollarda tərəflərin quracaqları gömrük məntəqləri və alınacaq gömrük rusumları yalnız beynəlxalq daşımalara şamil olunacaq.

Görüşdə həmçinin Ermənistan ilə Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirəni davam etdirmək barədə də razılıq əldə olunub və yaxın həftələrdə xarici işlər nazirlərinin başçılıq etdikləri nümayəndə heyətləri bu prosesi davam etdirəcəklər.

Əvvəlki öhdəliklərə uyğun olaraq birinci Qarabağ savaşından sonra hələ də taleyi məlum olmayan insanlarımız haqqında məlumatların verilməsi kimi məsələlər də yenidən masaya yatırılıb və müvafiq olaraq yenilənib. Bəyannamədə ”Dağlıq Qarabağ” ifadəsinin işlənilməməsi, Ermənistanın teztez diriltmək istədiyi Minsk Qrupuna istinaq edilməməsi də müsbət məqamlar kimi qeyd olunmalıdır.

Bütün sadalananlar onu deməyə əsas verir ki, Avropa İttifaqı da artıq 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli razılaşmaların formalaşdırdığı yeni geosiyasi reallıqdan çıxış edir. Azərbaycanın yaratdığı yeni reallıqları hələ də qəbul etmək istəməyən Ermənistan isə hər keçən gün daha çox itirir. Lakin bu cür mövqe uzun müddət davam edə bilməz. Əgər Ermənistan bu dəfə də Rusiyanın təzyiqlərinə boyun əyib Brüssel razılaşmasına əməl etməsə, o zaman Qərb Ermənistandan üz çevirəcək. Digər tərəfdən, Ermənistanın qeyri-müəyyən davranışları, sülhə mane olmaq cəhdləri onu beynəlxalq miqyasda da ciddi tənqid və qınaq obyektinə çevirə bilər. Bu kimi hallar isə Ermənistanın daha da ağır vəziyyətə düşməsinə səbəb olacaq. Odur ki, Ermənistan da nəhayətində bunu dərk etməli və götürdüyü öhdəlikləri icra etməlidir. Əks təqdirdə bu ölkə ilə sülh danışıqlarının aparılmasının da bir anlamı qalmayacaq. Belə olacağı halda baş verəcək bütün hadisələrə görə məsuliyyət də məhz Ermənistanın üzərinə düşəcək”.

*Banuçiçək Hüseynli*

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Erməni revanşistləri Brüssel görüşü haqqında

## Əvvəlinci qeyd: qaşınmaları davam edərsə, zorən aşınmalı olacaqlar!

Avropa İttifaqının vasitəçiliyi ilə Azərbaycan və Ermənistan dövlət başçılarının Brüsseldə keçirdikləri görüşlərinin ardınca Ermənistandakı revanşist qüvvələr yenidən İrəvan küçələrində hay-haray qaldıraraq millətlərin hesabına sülh prosesini əngəlləməyə yönəlmiş sifarişləri həyata keçirməyə başlayıblar.

Artıq bununla bağlı bəyanatlar verilir, müharibə çağırışları edilir və s. Misal üçün, keçmiş hakimiyyət rəhbərlərinin (Koçaryan-Sarqsyan cütlüyü) və onların dəstəkçilərinin bir araya gəldikləri ”Müqavimət” hərəkatı Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın arasında baş tutmuş danışıqlardan sonra bəyan edib ki, sözügedən görüş bilavasitə Azərbaycanın şərtləri əsasında keçirilib. Onların iddiasına görə, Nikol Paşinyan hakimiyyətini saxlamaqdan ötrü istənilən ”güzəştlərə” getməyə hazırdır və s...

Maraqlıdır ki, revanşistlər Nikol Paşinyanın hələ 2020-ci ilin 10 noyabrında kapitulyasiya sənədinə imza atmayacağı halda hansı çıxılmaz vəziyyətlərə doğru sürüklənərək ölkələrinin birdəfəlik məhv olması təhlükəsi ilə üz-üzə qalacağını hələ də anlamırlar, yaxud anlamaq istəmirlər. Yəni erməni baş naziri buna getməsəydi, hətta Ermənistanın xəritədə qalıb-qalmaması məsələsi gündəmə çıxa bilərdi. Görünür, bu reallığı anlamaq istəməyən revanşistlər ümid edirlər ki, onlar Paşinyanı devirməklə ölkələrini ”ağ günə” çıxaracaqlar və s. Necə deyərlər, qaşınırlar, amma unudurlar ki, nə qədər çox qaşınsalar zorən aşınmaya məruz qalacaqlar, yaxud da çox qaşınan yerdən qan çıxaracaqlar!

## Xətirlərinə dəyir ki, Qarabağ ermənləri Azərbaycanın tərkibində milli azlıq kimi göstərilirlər

Erməni cameəsinin bu bədbəxt kəsim məxluqlarının digər iddialarına nəzər salaq: onlar bildirirlər ki, danışıqların nəticəsi olaraq ”Daağlıq Qarabağın statusunu” müəyyən edəcək və ”artsax xalqının” (?!) müqəddəratlarını təyin etmək hüquqları, ATƏT-in Minsk qrupunun ”mandatı” barədə bir kəlmə də yoxdur və xətirlərinə dəyir ki, Qarabağ erməniləri Azərbaycanın tərkibində milli azlıq kimi göstərilirlər. Maraqlıdır, başqa cür olmalıymış ki? Bəlkə erməni işğalçılarının başını əzmiş qalib Azərbaycan ordusu daha sonra ermənilərin işğalçılıq siyasətlərinə uyğun addımlar atmalıymış? Yaxud, nəlkə Robert Koçaryan, Serj Sarqsyan və s. faşist köpəkləri ”buyur-buyur”la yuxarı başa keçirilib otuzdurmalıymışlar bizim isə xəbərimiz yoxdur?

Əslində, öz sərsəm, axmaq çağırışları ilə bilavasitə erməni dövlətinin təhlükəsizliyini böyük sual altında qoymuş ”boşa” (ermənicədən qaraçı-R.R.) adlandırılan həyasız tayfa təmsilçiləri iddia edirlər ki, sən demə Paşinyanın siyasəti Ermənistan və ”artsax” dövlətçiliyinə təhlükə saçır. Üstəlik, ”artsax” heç bir halda Azərbaycanın tərkibində olmalı deyilmiş və heç kimin ”erməni toraqlarını” (???!!!) Azərbaycana ”hədiyyə” etməyə ixtiyarı yoxdur. Çıxış yolu isə biriymiş - Paşinyanı hakimiyyətdən kənarlaşdırmaq və milli barışıq hökumətini qurmaq.

## Şansdan istifadə etməsələr, daha Brüssel-mrüssel də olmayacaq

Nə deyəsən, belə görünür ki, erməni xalqının özü doğru nəticə çıxarmaqla öz gələcək müqəddəratını təyin etməlidir. Yəni istəsə doğru seçim edərək gələcəyini sülhə, inkişafa və tərəqqiyə bağlaya, istəsə də birdəfəlik silinməyə məhkum ola bilər. Bu gün Ermənistandakı revanşist qüvvələrin mövcudluğu əslində müharibə istəməyən normal düşüncəli insanlardan azdır, amma bu mövcudluğun özü artıq regiona ciddi təhlükədir. Təhlükə varsa, bu təhlükəni zamanında aradan qaldırmaq gərəkdir. Hələlik isə sonuncu Brüssel görüşündə əldə edilmiş razılaşmaların Ermənistanın mövcud iqtidarı tərəfindən həyata keçirilməsini gözləyək. Yeri gəlmişkən, bu da onlar üçün sonuncu şansdır və həmin şansdan istifadə etməsələr daha Brüssel-mrüssel də olmayacaq. Kreml də artıq öz problemləri ilə başını qatır. Onu da unutmayaq ki, Azərbaycan tək deyil və onun Türkiyə kimi sarsılmaz, qətiyyətli və hər zaman yanında olan qardaşı var!

Axırıncı qeyd: yaxşısı budur ki, qaşınmasınlar, yoxsa bayaq da qeyd edildiyi kimi, aşınmaya məruz qalacaqlar. Daha əvvəllər olduğu kimi, Azərbaycanın səbri heç də çox deyil...

# "Bizim üçün vacibdir ki, qonşularımızın heç biri Rusiya üçün təhlükə yaratmasın"

**REGNUM informasiya agentliyinin Şərq redaksiyasının baş redaktoru, rusiyalı politoloq Stanislav Tarasov "Caliber" analitik mərkəzinə müsahibəsində maraqlı fikir səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- Stanislav Nikolayeviç, Tacikistandakı son hadisələri necə qiymətləndirirsiniz? Onların arxasında kim və ya nə dayanır?***

- Hesab edirəm ki, Tacikistanda vəziyyətin sabitliyinin pozulmasında ilk növbədə amerikalılar və ingilislər maraqlıdır. Məhz bu xarici qüvvələr bir tərəfdən Əfqanıstanı, digər tərəfdən Tacikistanı silkələyir.

***- Yəni, Moskva vəziyyətə qarışmayacaq?***

- Moskva heç nə etməyəcək. Rusiyanın 201-ci diviziyası artıq Tacikistandadır və bu, lazım gələrsə, cavab vermək üçün kifayət qədər döyüşə hazır qüvvədir.

***- Tacikistanda qazax ssenarisini istisna edirsiniz?***

- Qazaxıstan ssenarisi ən azı indiki mərhələdə istisnadır.

***- Nəyə əsasən razılaşmırsınız?***

- Axı, nə ola biləcəyini heç vaxt bilmirsən. Bura Mərkəzi Asiyadır. Orada hər zaman qarpız əkirlər qovun yetişir. Başa düşürsən?

***- Lazım gələrsə, KTMT qoşunlarının vaxtında gələcəyinə eyham vurursunuz?***

- Hər halda KTMT-nin köməyinə ümid etməyə dəyər.

***- Sizcə, amerikalıların postsovet məkanında başqa cəbhə açması məqsədəuyğundurmu?***

- Olduqca. Onların əsas məqsədi Rusiyanı zəiflətməkdir.

***- Gəlin Cənubi Qafqaz regionundakı vəziyyəti müzakirə edək. Azərbaycanla Ermənistan arasında sərhədin demarkasiyası prosesi niyə dalana dirənib?***

- Məncə, tərəflərdən biri blef edir. Hələ aydın deyil- Bakı, yoxsa İrəvan. Bakı tələsir, məcbur edir, çünki başa düşür ki, Ukrayna böhranı başa çatdıqdan sonra (yəqin ki, Ukraynada Moskva qalib gələcək) Rusiyanın postsovet məkanında siyasəti daha həlledici olacaq. Əvvəlki kimi halva olmayacaq.

***- Demarkasiya prosesi Ermənistan tərəfindən süründürülür, lakin artıq Rusiyanın sifarişi ilə, bununla da Brüssel razılaşmalarına mane olur. Bu, Moskvanın başqa bir şıltaqlığıdırmı?***

- Hansı sərhədlərdən danışırsan? Bu, keçmiş Sovet İttifaqının sərhədləridir. Bəs Brüssel kimdir? Paşinyan niyə demarkasiya məsələsi ilə bağlı danışıqlar aparmaq üçün Brüsselə gedir? Bura bizim tarixi coğrafiyamızdır. Yoxsa elə bilirsiniz ki, Brüsseldə xəritə hazırlayıb sizə verəcəklər? Heç nə almayın. Hər bir halda, Paşinyan artıq məğlubdur. O, Azərbaycanla müqavilə bağlayanda Qarabağ müharibəsini uduzmuşdu, ona görə də indi aydın deyil onun kuratorları kimdir- Brüssel, yoxsa Moskva. Kremldə Putinə bir söz deyir, sonra Avropaya qaçır və orada başqa bir sənədə imza atır. Paşinyan Rusiyanın özünü necə apardığını görmək üçün bu yolla vaxt qazanır. Yalnız bir "amma" var. Moskva hazırda Cənubi Qafqaza köklənməyib. Əvvəlcə Ukrayna ilə işimizi bitirəcəyik, sonra Zaqafqaziya ilə məşğul olacağıq.

***- "Zaqafqaziya ilə məşğul olacağıq" nə deməkdir?***

- Elementar olaraq. Bilirsinizmi, ötən gün İrəvanda rus generalı İvan Paskeviçin xatirəsi ehtiramla yad edilib, abidəsi önünə əklillər qoyulub? Beləliklə, bir sualım var. Türkmənçay sülhünü imzalayan, Zaqafqaziyanı Rusiyaya birləşdirən və İrəvanı alan rus generalı niyə ermənilər birdən-birə xatırladılar? Bəli, ona görə ki, indi ruslar ermənilərə deyirlər: "Bura bizim ərazimizdir, Armen can, onu biz almışdıq. Ukrayna məsələsi bitirəndən sonra görək necə danışacaqsınız".

***- Rusiya Ermənistana nasist ideologiyası "oxumağa" icazə verdi. Faşist Qaregin Njdenin abidəsi hələ də orda var, bəlkə bunu xatırlayarsınız?***

- Başa düşürsünüz, Njde getdikcə geosiyasi xarakter daşıyır. Moskva öz əhəmiyyətini göstərir, mən sizə Paskeviçin abidəsi önünə əklil qoyulmasını bir səbəblə xatırlatdım. Rusiya Qafqazda öz üstünlüyünü göstərir. Biz bu bölgəni qan bahasına aldıq, sonra bu torpaqları milli respublikalara verdik. Onlara kömək etdik, orada elmlər akademiyaları yaradıldı, sonra da nəhayət hamısını öz adlarına çıxdılar.

***- Doğrudanmı Moskva ermənilərin Rusiya əleyhinə demarşlarını və Putinin portretlərini yandırmasını bağışlamayacaq?***

- Rusiya Ermənistanı öz maraqlarını nəzərə almağa məcbur edəcək. İndi bizim Qərblə problemimiz var. Lakin Rusiya şərqə doğru açılır. Daha doğrusu, cənub-şərqə İran, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan istiqamətində. Məhz bu ölkələrdə Ukrayna böhranından sonra ciddi hadisələr baş verəcək.

***- Siz Moskvanın SSRİ-2.0 layihəsini canlandırmaq planından danışırsınız?***

- Yox. Rusiya keçmiş müttəfiq respublikaları yenidən öz çiyinlərində sürükləmək fikrində deyil. Biz artıq bu yolu keçmişik, bunun əvəzində üzümüzə tüpürdülər. Heç kim təşəkkür etmədi. Beləliklə, bizə yeni Sovet İttifaqı lazım deyil. Bizə neytral, azad, özünü inkişaf etdirə bilən dövlətlər lazımdır. Amerikalılar sizi yedizdirir? Qoy belə davam etsinlər. Brüssel sizə pul verir? Verməyə davam etsin. İnşallah, təki yaxşı yaşayın, amma bizə toxunmayın. Allah xatirinə, bizə qonaq, turist kimi gələ bilərsiniz.

***- Gözlənilən deyil. Bəs onda Rusiya öz imperiyasını kimin hesabına gücləndirəcək?***

- Bunlar boş söhbətlərdir. Bizdə politoloqlar qədər siyasətçi var, görürsünüz. Tarasov bir şey haqqında düşünür, başqası isə tamam başqa fikir bildirir. Onlara, eləcə də mənim fikrimə diqqət yetirməyə dəyməz. Axı mən dövlət nöqteyi-nəzərinin daşıyıcısı deyiləm, necə ki, Dövlət Dumasının deputatlarının fikirlərini rəhbər tutmaq lazım deyil. Kremlə, Putinə, Rusiya Xarici İşlər Nazirliyinə diqqət yetirmək lazımdır. Ümumiyyətlə, biz Zaqafqaziyada artıq "kabab yemişik" və heç kimi, sizin dediyiniz kimi, bir çətirin altına yığmaq istəmirik. Bizim üçün vacibdir ki, keçmiş Sovet ölkələrinin heç biri Rusiya üçün təhlükə yaratmasın. Ermənistan bizə Rusiyanın bir hissəsi kimi lazım deyil. Rusiyaya müstəqil Ermənistan lazımdır ki, bizdən başqası ilə qidalansın. Prinsip belədir: ya özünüz pul qazanın, ya da Paris və ya London sizi yedizdirsin. Artıq bunu biz etməyəcəyik.

***- Anlaşılandır. Heç kəsi yedizdirmək istəmirsən, amma idarə etmək istəyirsən...***

- Yalnız milli təhlükəsizliyimizin mənafeyinə görə. Keçmiş respublikalarda raket və ya buna bənzər şeylərin görünməsinin qarşısını almaq üçün.

***- Siz düşünürsünüz ki, Moldova və ya yoxsul Ermənistan Rusiyanın təhlükəsizliyinə təhlükə yarada bilər?***

- Bəli. Tam belədir. Moldova da Ukrayna kimi potensial NATO ölkəsidir. Ona görə də məcbur olub Ukraynaya əməliyyata getdik. Gürcüstanla da hər şey aydındır, Qərbə baxır. Azərbaycan Türkiyə tərəfə baxır. Biz Ərdoğanla da razılaşa bildik və əməkdaşlıq edirik. Ermənilərdə hər şey qeyri-müəyyəndir. Gah Moskvanın yanındadırlar, gah da Brüsselin yanındadırlar, bəlli deyil ki, nəticədə onlar kiminlədir. Gəlin bunu anlayaq. Ermənilərin çantalarını yığışdırması ilk dəfə deyil. Axı 40 milyon ukraynalı harasa getməlidir. Beləliklə, biz onları Sibirə və Qafqaza göndərə bilərik.

***Tərcümə - Elçin Bayramlı***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Dünyada meymun çiçəyi xəstəliyinə yoluxanların sayı 130 nəfəri ötüb

**Ümumdünya Səhiyyə Təşkilatı indiyədək dünya üzrə insanlar arasında meymun çiçəyi infeksiyasına 131 yoluxma halı qeydə alıb. AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, bu barədə məlumat Ümumdünya Səhiyyə Assambleyasının xüsusi sessiyasında səsləndirilib.**

Mayın 23-nə olan məlumata görə, dünyanın 17 ölkəsində meymun çiçəyinə yoluxma halı aşkarlanıb. Həmçinin Sudan və Argentina ehtimal olunan yoluxmalarla bağlı araşdırma aparır. Ən çox yoluxma İspaniya (40 nəfər), Portuqaliya (37 nəfər) və Böyük Britaniyada (20 nəfər) qeydə alınıb. Eyni zamanda, hazırda araşdırılan 106 yoluxma halından 51-i İspaniyadadır.

Qeyd edək ki, meymun çiçəyi nadir virus infeksiyasıdır. Xəstəlik çox vaxt yüngül keçir və pasiyentlərin əksəriyyəti bir neçə həftə ərzində sağalır. Lakin bəzi hallarda ağırlaşmalar da baş verir. Yüksək hərarət, baş və əzələ ağrısı, limfa düyünlərinin şişməsi, bel ağrıları, titrətmə və yorğunluq xəstəliyin ilk simptomlarıdır. Həmçinin əvvəlcə üzdə, sonra isə bədənin digər hissələrində səpmə əmələ gələ bilər.



# Ürəyimiz yananda...



**Tərkibində güclü antioksidantlar olan çay orqanizmdə xolesterolu azaldır, ürək, diabet və şəkər kimi xəstəliklərə qarşı qoruyucu təsir göstərir. Nüfuzlu tibb saytlarında yazılan məlumatlarda deyilir ki, çay düzgün qəbul edilmədikdə faydalı deyil, əksinə, daha çox zərərli içkiyə çevrilə bilər. Çay piylənmə, ürək xəstəlikləri, ikinci növ şəkərli diabet, ağciyər, dəri xərçəngi kimi xəstəliklərdən qorunmaq üçün çox faydalıdır.**

Avropa Qida Təhlükəsizliyi Təşkilatı hər bir insanın gündə 400-600 milliqram yaşıl çay içməsini vacib sayır. Çay içərkən onun miqdarına və şəkərsiz içilməsinə də diqqət etmək lazımdır. Çox miqdarda çayın qəbulu böyrək və qaraciyərdə bir çox zədələnmələrə səbəb olur. Çay həddindən artıq içildikdə mədə yanması və qəbizlik kimi problemlərə səbəb olur.

Zövqə görə müxtəlif cür - qara, yaşıl və qırmızı çaylardan istifadə edilir. Çay sidikqovucu xüsusiyyətə malikdir və orqanizmdə olan bir çox lazımsız toksinləri xaric edir. Mütəxəssislər çayı yeməkdən yalnız 2 saat sonra içilməsini tövsiyə edir.

# “Azərbaycanın adı xarici ölkələrdə saxta diplomla hallanır”

**“Çox təəssüflər olsun ki, Azərbaycanın adı xarici ölkələrdə saxta diplomla hallanır. Bunun əsas səbəbi bizim müəyyən təhsil sənədlərimizin hər hansı bir elektron bazada olmaması ilə bağlıdır. Xüsusən Türkiyədə oxumağa gedənlər Azərbaycanda hər hansı bir printerdən çıxmış materiala peçat əlavə edirlər və bu materialı həmin universitetə təqdim edirlər”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.**



Ekspertdən açıqlama

Onun sözlərinə görə, bununla bağlı dəfələrlə məlumat verilib: ”Bəzən DİM-in imtahan nəticəsi vərəqini fotoşopla düzəldib yüksək balla Türkiyənin universitetlərinə təqdim edirlər. DİM mövcud problemi həll etmək üçün hər bir arayışın yoxlanması üçün oz portalında müvafiq bölmə yaradıb. Ona görə də istənilən xarici ölkə universiteti DİM-in arayışını yoxlamaq üçün DİM-in portalına müraciət edərək bunu yoxlaya bilir”.

Kamran Əsədov sözlərinə belə davam edib: ”Hesab edirəm ki, Təhsil Nazirliyi də elektron portalda sənədlərin yoxlanması üçün bölmə açmalıdır. Bu günləri biz görürük ki, saxta atestatların verilməsi ilə bağlı faktlar var. Onlar bunu xüsusilə də Türkiyə universitetlərinə qəbul olmaq üçün edirlər. Bəzən Türkiyənin Yüksək Öyretim Kurumu dövlət qurumlarına sənədlərin onlara aid olub olamaması ilə bağlı müraciət edir. Amma nəzərə alsaq ki, hər il Azərbaycandan Türkiyəyə 20 mindən çox gənc oxumağa gedir. Xarici universitetlərin bu sənədləri yoxlamağa imkanı yoxdur. Bu ciddi bir problemdir. İndiki halda sənədlərin yoxlanması prosesi uzun çəkdiyinə görə bəzən buna qarşı mübarizə aparmaq olmur. Proses elektornlaşsa hesab edirəm ki, problem aradan qalxacaq ”.

*Ayşən Vəli*

## Keçmiş məhkum avtobusda 4 sərnişini qarət edib

Bakıda keçmiş məhkum marşrut avtobusunda 4 sərnişini qarət edib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində müxtəlif vaxtlarda Binəqədi rayonu ərazisində marşrut avtobuslarında 4 vətəndaşın çantasından və cibindən pul, içərisində sənəd və bank kartları olan cüzdanlarını oğurlamaqda şübhəli bilinən Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş Qurban Mehdiyev müəyyən edilərək saxlanılıb. Araşdırma aparılır.



# Pandemiya dövründə milyarderlərin sayı 573 nəfər artıb!

## Əsl ŞOK budur:

**COVID-19 pandemiyasının başlanğıcından bəri dünyada 573 yeni milyarder meydana gəlib, onların sərvəti isə bu müddət ərzində ümumilikdə 3,78 trilyon dollar artaraq 12,7 trilyon dollar, yaxud ümumdünya ÜDM-nin 13,9 faizini təşkil edir. Bu rəqəmlər Oxfam xeyriyyə təşkilatının məruzəsində yer alıb.**

**Məruzəyə əsasən, hər 30 saatda dünyada yeni milyarder meydana gəlir və hazırda onların ümumi sayı 2668 nəfərə çatır. Eyni zamanda, hər 33 saat ərzində bir milyon insan ən kasıblar kateqoriyasına keçir, yəni gündə 1,9 dollardan az vəsaitlə dolanır. Dünyadakı ən zəngin 10 insanın sərvəti planetin ən kasıb əhalisinin 40 faizinin varidatına bərabərdir. Məruzə müəllifləri hesablayıblar ki, ərzaq və energetika sektorunda fəaliyyət göstərən milyarderlərin aktivləri hər iki sutkada bir milyard dollar artır, son iki ildə isə bu göstərici 453 milyard dollara yüksəlib. Ən böyük beş energetika kompaniyası (BP, Shell, TotalEnergies, Exxon və Chevron) saniyədə 2,6 min dollar xalis gəlir əldə edir.**



## Başsağlığı

**Səs Media Qrupunun kollektivi baş redaktor Bəhruz Quliyevə əmisi, tanınmış ziyalı**

**İdris Quliyevin**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

***Allah rəhmət eləsin.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**